Xalqın qəzeti!

# Xalq qəzeti

№ 22 (30426) 2 fevral 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Ölkə həyatının müxtəlif sahələrində uğurlar qazanmış gənclərə 2024-cü il üçün Prezident mükafatları verildi**

## Parlamentlərarası İttifaq Azərbaycanın COP29 liderliyini dəstəkləyir

### Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib.**

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi, bunun Azərbaycan xalqı və dövləti üçün tarixi məqam olduğunu qeyd etdi, bu yeni şəraitin regionda sülhün və sabitliyin gücləndirilməsi üçün imkanlar yaratdığını vurğuladı.

Dövlətimizin başçısı dedi ki, Minsk qrupu 28 il ərzində münaqişənin həlli prosesi ilə məşğul olsa da heç bir nəticə əldə edilmədi, Azərbaycan torpaqları işğaldan azad olunmadı, məcburi köçkünlərin geri qayıtması təmin edilmədi. Azərbaycan tərəfi isə torpaqları işğal altında olan zaman haqlı şəkildə Minsk qrupunun üzv dövlətlərini Ermənistana təzyiq göstərmək, ona müvafiq sanksiyalar tətbiq etmək barədə təkliflər irəli sürdüyü halda, o vaxt Minsk qrupu tərəfindən bu istiqamətdə heç bir addım atılmadı.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilmədi. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub.

Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini, son 3 il ərzində Azərbaycanın Qarabağ bölgəsində separatizmi maliyyə, hərbi və digər vasitələrlə dəstəkləməkdə davam etdiyini bildirdi.

Azərbaycan Prezidenti ötən il sentyabrın 2-də Ermənistan rəhbərliyinin qondarma "Dağlıq Qarabağ respublikası"nın "müstəqilliyi" münasibətilə göndərdiyi təbrikin, həmçinin sentyabrın 9-da keçirilmiş dırnaqarası "prezident seçkiləri"nin sülh prosesinə ciddi zərbə vurduğunu, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmək üçün antiterror tədbirləri keçirməli olduğunu vurğuladı.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 Fevral Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev paylaşımında qeyd edib: "Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər".

## Belə GUAM bizə lazımdırmı?




**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası zamanı ölkəmizlə bağlı keçirilən səsvermə bir çox mətləblərin üstünə işıq saldı. Özümüzə yaxın dost saydığımız Gürcüstan, Ukrayna və Moldova heç gözləmədiyimiz halda səsvermədə iştirakdan imtina etdilər. Düzdür, onlar Azərbaycanla bağlı qətnamənin lehinə də səs vermədilər. Amma səsvermədə iştirak etməkdən imtina da müttəfiqə yaraşan hərəkət deyil.**

Məlum olduğu kimi, Azərbaycan postsovet məkanında ərazi bütövlüyü ilə bağlı problemlər yaşayan yeganə dövlət deyil. Gürcüstan, Ukrayna və Moldova da ümumi problemlə – separatizm, torpaqlarının işğalı və etnik təmizləmə siyasəti ilə üzləşiblər. Amma 2020-ci ildə Azərbaycan keçmiş SSRİ məkanında bu problemi həll edə bilən yeganə dövlət oldu. Gürcüstan, Ukrayna və Moldova ərazi məsələləri həll olunmamış ölkələr klubunda qalırlar. Ancaq bu dövlətlərin nümayəndə heyətləri AŞPA-da özlərini adekvat aparmadılar. Onlar qeyd etdiyimiz kimi, sadəcə, səsvermədə iştirak etmədilər. Halbuki, AŞPA qış sessiyasında mahiyyətcə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına aldı. AŞPA-nın qətnaməsi "Azərbaycan hakimiyyətinin Dağlıq Qarabağdakı fəaliyyəti", "Laçın dəhlizinin blokadası" ittihamları ilə doludur. Gürcüstan, Ukrayna və Moldova nümayəndələrinin Azərbaycanın ərazi bütövlüyünə qarşı bu hücumların əleyhinə səs verməməsi onların işğaldan azad edilmiş ərazilər üzərində Azərbaycanın suverenliyini tanımamasına işarə sayıla bilər.

*(ardı 3-cü səhifədə)*

## Fransa Korsika azadlıq hərəkatını beşiyində boğur



**SSRİ-nin dağılmasından sonra birdən-birə dünyanın üzünə geniş açılmış qapılarımızı ABŞ-dan, Fransadan, Almaniyadan ... olan "demokratlar" döyməyə başlamışdılar. Zarafat deyildi, 15 respublika imperiya caynağından çıxmışdı. Bu məqamı əldən vermək olmazdı. Amma çox təəssüflər ki, müstəqillik qazandığımız təxminən 30 illik bir dövrdə ABŞ və Fransa "demokratiyasının" hər üzünü gördük. Odur ki, bu gün əlimiz üzümüzdə heyrətdən donub qalmışıq: budurmu bunların, konkrtet olaraq Fransanın bizə vermək istədiyi "demokratiya"?**

İndi biz bir yana, məlum olur ki, Fransa heç öz ərazisində demokratiyanı tətbiq etmək, xalqlara azadlıq, müstəqillik vermək niyyətində deyil. Ümumiyyətlə, bu gün beynəlxalq ekspertlər hesab edirlər ki, Fransa müstəmləkəçiliyi ən sistemli şəkildə tətbiq edən ölkədir. Ötən dövrün tarixinə Fransa adını qara qanla yazdırıb – amansız soyqırımları törədib, insanları vəhşicəsinə qətlə yetirib, milyonlarla insana qarşı köləşdirmə siyasəti aparıb.

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə bildirib ki, Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq şəhidlərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Prezident İlham Əliyev Fransanın öz müstəmləkə keçmişinə, qanlı cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya dövlətlərindən və digər ölkələrdən üzr istəməli olduğunu qeyd edib.

*(ardı 4-cü səhifədə)*

## "Dəmir İpək yolu"nda daşımalar 5 milyon tona çatdırılacaq

**Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) əsas seqmentlərindən sayılan Bakı–Tbilisi–Qars (BTQ) layihəsi üzrə tədbirlər davam edir. Orta Dəhlizin polad magistralının Gürcüstan ərazisindən keçən hissəsinin genişləndirilməsi işləri bir neçə aya başa çatacaq. Bununla da, BTQ üzrə buraxılış gücü 1 milyon tondan 5 milyon tona qədər artırılacaq.**



ardı 7-ci səhifədə



**Buyurun, bu da "bəxtəvər ölkələr"in sonu...**

Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibini qəbul edib



(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğuladı ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Qonaq Beynəlxalq Parlamentlər İttifaqının Ermənistanın və Azərbaycanın parlament nümayəndələri arasında dialoq üçün platforma ola biləcəyi təklifi ilə çıxış etdi. Dövlətimizin başçısı bu təşəbbüsü yüksək qiymətləndirərək, iki ölkənin parlamentləri arasında məhz bu platformada dialoqun aparılmasının Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı.

Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış etdiyini, Ermənistanın militarizasiya siyasəti apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasət yürütdüyünü də diqqətə çatdırdı. Dövlətimizin başçısı Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

Martin Çunqonq Parlamentlərarası İttifaqın parlamentarilər arasında dialoqa, inklüzivliyə çağırdığını, eksklüzivliyin tərəfdarı olmadığını, bu kimi yanaşmaların düzgün qəbul edilmədiyini, beynəlxalq parlamentarizm ənənələri ilə uyğun gəlmədiyini diqqətə çatdırdı.

Qonaq COP29-la bağlı dövlətimizin başçısını təbrik edərək, COP29 keçiriləcəyi zaman Parlamentlərarası İttifaq çərçivəsində parlament nümayəndə heyətlərini bir araya gətirən, ətraf mühit və iqlim dəyişikliyi istiqamətlərində beynəlxalq səyləri dəstəkləyən bir tədbirin təşkil olunma təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüsü dəstəkləyən dövlətimizin başçısı qonağı Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə də təbriklərini çatdırdı, ölkəmizin Hərəkatın parlament ölçüsünün yaradılması təşəbbüsünü təqdir etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi müddətində bu təsisatın beynəlxalq nüfuzunun artırılması, yeni əməkdaşlıq sahələrinin yaradılması, bu xüsusda parlament, gənclər ölçülərinin və qadın platformasının təsis olunması istiqamətində təşəbbüslərlə çıxış etdiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1080-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1080-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 40-cı maddəsinin dördüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur;

1.3. “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 37.1-ci maddəsinin üçüncü abzasının ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 37.1-ci maddəsinin üçüncü abzasının ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1080-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 40 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bəndə “Qanununun” sözündən sonra “40-cı maddəsinin dördüncü hissəsində və” sözləri əlavə edilsin;

3.2. 3.15-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.16-cı bənd əlavə edilsin:

“3.16. həmin Qanunun 40-cı maddəsinin dördüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur.”.

**4.** “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 mart tarixli 42 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 143 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-1-ci bəndə “10.2.6-cı maddəsində,” sözlərindən sonra “37.1-ci maddəsinin üçüncü abzasının ikinci cümləsində,” sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 3.1-2-ci bənd əlavə edilsin:

“3.1-2. həmin Qanunun 37.1-ci maddəsinin üçüncü abzasının ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 1 fevral 2024-cü il**

# 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109 cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2024 cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Abdullayeva Gülnar Rizvan qızı
Ağamirova Rəvanə Seymur qızı
Ağazadə Taryel İsa oğlu
Allahverdiyev Ayxan Elman oğlu
Baxışova Rzayeva Kimyəxanım Ziyad qızı
Məhərrəmova Zərifə Hüseyn qızı
Məmmədov Ulucay Akif oğlu
Məmmədova Dinara Bəxtiyar qızı
Məmmədova Fatimə Nizami qızı
Mirələmli Pərviz Atamalı oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 1 fevral 2024-cü il**

# Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarlara kredit təşkilatları tərəfindən verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra – kredit təşkilatları) manatla aldıqları kreditlərə hesablanmış faizlər Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə subsidiyalaşdırılsın.

**2.** “Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki, subsidiya sahibkarlar tərəfindən 2024-cü il yanvarın 1-dən dekabrın 1-dək kredit təşkilatlarından manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilir.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faizlərin subsidiyalaşdırılmasını təşkil etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə ödəniləcək faizlərin subsidiyalaşdırılmasını təmin etmək məqsədilə tələb olunan vəsaitin 2025-ci ildən başlayaraq dövlət büdcəsində nəzərdə tutulması üçün tədbirlər görsün.

**7.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan təsdiqedici sənədin formasını və verilməsi qaydasını 10 (on) gün müddətində təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 1 fevral 2024-cü il**

# “İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri”nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri”nin təsdiq edilməsi haqqında” 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə” 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 1 fevral 2024-cü il**

# AŞPA və Fransa Parlamentinin Azərbaycana qarşı qətnamələri qərəzli və sifarişlidir

**Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin qəbul edilməməsi Azərbaycana qarşı növbəti ikili standartlardan və qərəzlilikdən xəbər verir.**

Bu barədə İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycandakı Regional Nümayəndəliyinin yaydığı bəyanatda deyilir.

AŞPA-nın bu məntiqsiz və absurd addımı bəzi məkrli qüvvələrin sifarişidir. Bu hal birmənalı olaraq Azərbaycana qarşı təzyiq məqsədi daşıyır. Təəssüf ki, Avropada bəzi dairələr ermənipərəst mövqedən çıxış edirlər.

Bəyanatda vurğulanır ki, hazırda Ermənistanda anti-semitizm tüğyan edir, Sinaqoqa, Yəhudi ibadət yerlərinə hücumlar, vandalizm aktları baş verir. Amma çox təəssüf ki, mövcud dünya birliyi ermənilərin bu qeyri-insani addımlarına göz yumur. AŞPA-nın ən birinci münasibət bildirəcəyi məsələlərdən biri Ermənistandakı belə halların pislənilməsi olmalıdır. Hazırda AŞPA-nın Azərbaycana qarşı sərgildiyi qərəzli yanaşma da bu ikili standartların açıq təzahürüdür.

“AŞPA-nın və Fransa Parlamentinin anti-Azərbaycan xarakterli qərəzli qərarını qəti şəkildə pisləyirik. Bütün qərəzli və heçbir hüquqi əsası olmayan anti-Azərbaycan kampaniyalarına qarşı Azərbaycana öz dəstəyimizi ifadə edirik”, deyə bəyanatda bildirilir.

# AYİB ilə COP29-a hazırlıq dialoqu

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) İqlim Strategiyası və Çatdırılması Departamentinin icraçı direktoru Harri Boyd-Karpenterlə görüşüb.**

Mikayıl Cabbarov Azərbaycanın AYİB ilə uğurlu əməkdaşlıq etdiyini və bankla əlaqələrin inkişafına önəm verdiyini vurğulayıb.

AYİB nümayəndələri bankın Azərbaycanla səmərəli tərəfdaşlığı davam etdirməkdə maraqlı olduğunu qeyd ediblər.

Görüşdə ölkəmizin evsahibliyi edəcəyi COP29-a hazırlıq çərçivəsində görülən işlər, beynəlxalq təşkilatlarla dialoqun qurulması, enerji səmərəliliyinin təmin edilməsi üçün resursların effektiv tənzimlənməsi müzakirə olunub.

***XQ***

# Belə GUAM bizə lazımdırmı?

## Gürcüstan, Ukrayna və Moldovanın AŞPA-dakı son mövqeyi bu sualı gündəmə gətirib

*(əvvəli 1-ci səhifədə)*

Maraqlıdır ki, həm Tbilisidə, həm Kiyevdə, həm də Kişineuda Azərbaycandan söz düşəndə, ölkəmizi sabit strateji və ticarət tərəfdaşı, etibarlı dost adlandırırlar. Ancaq dost, necə deyərlər, dar gündə tanınır. Azərbaycan heç vaxt dostlarını dar gündə tərk etməyib. Eyni zamanda, dostlarının (eləcə də dünyanın bütün dövlətlərinin) ərazi bütövlüyünü şübhə altına almayıb.

Azərbaycan üç ölkə ilə birgə Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatda (GUAM) təmsil olunur. Təşkilat Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova prezidentlərinin 1997-ci il oktyabrın 10-da Strasburqda Birgə Kommunike imzalaması ilə dörd dövlətin birliyi kimi fəaliyyətə başlayıb. 1999–2005-ci illərdə Özbəkistan da təşkilatın üzvü olub. Zənnimizcə, AŞPA-da baş verənlər Azərbaycanın da təşkilatla münasibətlərinə yenidən baxmasına gətirib çıxara bilər. Məhz səsvermədən sonra bu istiqamətdə müxtəlif çağırışlar səslənməyə başlayıb. Doğrudan da, müdrik atalarımız yaxşı deyib: "Dost dosta tən gərək..."

**Ancaq Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov "XQ"yə bildirdi ki,** AŞPA-da keçirilən səsvermə ilə



bağlı Gürcüstan, Ukrayna və Moldovadan olan həmkarları sərt şəkildə qınamağa dəyməz. O, öz fikirlərini bununla əsaslandırdı ki, səsvermədə dövlətlər qərar vermirlər. Belə ki, hər bir deputat şurada hansısa fraksiyaya daxildir: "Fraksiyada isə səsvermə ilə bağlı qərar qəbul edildiyi halda deputatlar ya ona tabe olmalıdır, ya da tabe olmaq, eyni zamanda, qərarın əleyhinə çıxmaq istəmirlərsə, adətən, səsvermədən yayınırlar. Gürcüstandan, Ukraynadan və Moldovadan olan deputatlar da buna görə səsvermədən yayındılar. Çünki "Avropa mühafizəkarları" fraksiyası istisna olmaqla, digər fraksiyalar Azərbaycanın əleyhinə səs verməklə bağlı qərar qəbul etmişdilər".

Bununla belə Rasim Musabəyov qeyd etdi ki, ümumiyyətlə, götürdükdə, GUAM-ın bir təşkilat kimi əhəmiyyətini çoxdan itirdiyini demək mümkündür: "Yada salmaq lazımdır ki, vaxtilə Azərbaycan Prezidenti Heydər Əliyevin, Ukrayna Prezidenti Leonid Kuçmanın, Moldova Prezidenti Pyotr Luçinskinin, Gürcüstan Prezidenti Eduard Şevardnadzenin GUAM-ı yaratmaqda məqsədləri Rusiya Prezidenti Boris Yeltsinin MDB-ni SSRİ-nin hansısa yeni formasına çevirmək cəhdlərinə bir növ sədd çəkmək idi. GUAM MDB çərçivəsində həmin missiyanı, demək olar ki, yerinə yetirdi. Ruslar MDB-ni Yeltsinin, Rusiyanın istədiyi şəkildə transformasiya etməyi bacarmadılar. Ona görə də sonradan gedib Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, Avrasiya İqtisadi İttifaqı kimi birliklər yaratdılar. Ancaq, yenə deyirəm, MDB-də bunu etməyə nail ola bilmədilər. Moldova, Gürcüstan və Ukrayna MDB-ni tərk etdikdən sonra, ümumiyyətlə, həmin təşkilat çərçivəsində Azərbaycanla səyləri əlaqələndirmək missiyası tamamlandı".




Milli Məclisin deputatı bildirdi ki, GUAM-a üzv ölkələrin hamısının etnik separatizmdən əziyyət çəkdiyi nəzərə alınaraq biz yenə də əlaqələrimizi davam etdirirdik: "Üç ölkə yenə də Rusiyanın himayə etdiyi separatizmdən əziyyət çəkir. Ancaq Azərbaycan bu məsələni həll edib. Bu baxımdan da bizim səyləri əlaqələndirmək ehtiyacımız xeyli aşağı düşüb".

Müsahibimiz GUAM-dan çıxmağı, yaxud təşkilatın buraxılmasını düzgün hesab etmədiyini vurğuladı: "Hazırda qayda, hər halda son dövrlərin ənənəsi belədir ki, yaradılan təşkilatları hər ehtimala qarşı saxlayırlar. Yəni, onu ləğv etmirlər. Nəzərə almaq lazımdır ki, hazırda həmin təşkilata Azərbaycan sədrlik edir. Onun baş katibi Azərbaycan diplomatı Altay Əfəndiyevdir. Təşkilatın buraxılması ilə bağlı ölkəmizin hansısa təşəbbüslə çıxış edəcəyini düşünmürəm. İndi yola verək, sonra isə təbii ki, götür-qoy etməliyik. Hər bir halda mənə elə gəlir ki, GUAM-ın indiki dövrdə, yəni dördlük formatında missiyası tamamlanıb. Hansı yeni siyasi zərurət ortaya çıxa bilər? Ola bilsin ki, təşkilatın daha geniş şəkildə, tutaq ki, Baltikyanı ölkələrin, Türkiyənin, Özbəkistanın, Vişeqrad qrupu ölkələrinin (Polşa, Çexiya, Slovakiya və Macarıstan) qoşulması ilə birgə əməkdaşlıq qurumuna çevrilməsi nəzərdən keçirilə bilər. Ancaq, bu, sonranın məsələsidir. Hələlik isə düşünürəm ki, təşkilat öz işini davam etdirəcək".

**GUAM Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Nəsib Məhəməliyev isə qəzetimizə müsahibəsində dedi ki,** GUAM postsovet ölkələri arasında etnik separatizmlə üzləşən 4 ölkənin birgə səyləri nəticəsində yaradılıb. Onun sözlərinə görə, həmin vaxtlar təşkilatın əsas funksiyası beynəlxalq platformalarda vahid mövqedən çıxış etməkdən ibarət idi: "Çox təəssüf ki, GUAM həmin ölkələrdə mövcud olan siyasi konyukturadan asılı olaraq, xarici siyasətini müəyyənləşdirirdi. Məsələn, Ukraynada, yaxud Moldovada Rusiyayönümlü şəxslər siyasi hakimiyyətdə idilərsə, onlar, təbii ki, Qərbdən üz çevirirdilər. Yaxud, həmin ölkələrdə Qərbyönümlü



şəxslər iqtidara gələndə onlar Rusiya əleyhinə siyasət aparırdılar. Beləliklə, təşkilatın fəaliyyəti siyasi konyukturadan asılı olaraq formalaşırdı. Bu, ən böyük nöqsanlardan idi".

Nəsib Məhəməliyev bildirdi ki, GUAM üzrə müttəfiqlərimizin AŞPA-dakı səsvermə zamanı tutduqları mövqe təəssüf doğurur: "Müttəfiqlərimiz özlərini müsbət tərəfdən göstərmədilər. Düzdür, ukraynalı deputat Aleksey Qonçarenko Azərbaycanın mövqeyindən çıxış etdi və mövqeyini kifayət qədər əsaslandırdı. Ancaq Gürcüstan, Ukrayna və Moldova nümayəndə heyətləri bütövlükdə səsvermədə iştirak etmədilər. Bu da o anlama gəlir ki, həmin dövlətlər çətin durumda öz müttəfiqlərinə lazımi dəstək vermədilər. Təbii ki, AŞPA-da hansısa "dirijor" bu ölkələrin nümayəndə heyətlərinə konkret təzyiq göstərməklə onları Azərbaycan əleyhinə prosesə cəlb etdi. Ancaq həmin ölkələrlə sıx əlaqələrimiz olduğu üçün onlar açıq-aşkar əleyhimizə səs verə bilmədilər. Bu baxımdan onlar başqa bir yol seçdilər. Yəni, səsvermədə iştirak etmədilər".

Milli Məclisin deputatı qeyd etdi ki, Azərbaycan GUAM təşkilatında həmin ölkələrə daha çox lazımdır, nəinki həmin ölkələr Azərbaycana: "Son 30 ildə Gürcüstanın bir dövlət olaraq ayaqda qalmasında, onun ən çətin zamanda problemlərinin həllində Azərbaycan özünü ən yüksək səviyyədə göstərib. Ölkəmiz qardaşlıq, strateji müttəfiqlik dəstəyini nümayiş etdirib. O cümlədən Ukraynanın ən mürəkkəb dövrlərində biz o dəstəyi vermişik. Mən xatırlayıram ki, 1999–2000-ci illərdə Ukraynada məhsul yığımı zamanı Rusiyadan gələn dizel yanacağı, sürtkü yağları tamam kəsildi. Ukraynanın məhsulu batmaq üzrə idi. O zaman ulu öndər Heydər Əliyev operativ qərar qəbul etdi və 500 min ton dizel yanacağı Ukraynaya göndərildi. Ölkəmizin Ukraynaya indi də verdiyi iqtisadi, siyasi, mənəvi dəstəyi daha bir nüansdır. Ancaq təəssüf ki, həmin ölkələr bu sınaqdan çıxmadılar. Yəni, Azərbaycanın bəzi hallarda, hətta, ehtimal olunan riskləri nəzərə almadan göstərdiyi köməyin əvəzini verməyə cürətləri çatmadı".

Nəsib Məhəməliyev daha sonra dedi ki, ümumiyyətlə, biz dövlət olaraq, öz problemimizi həll etmişik. Gələcəkdə bizim onlara elə də ehtiyacımız yoxdur: "Hesab edirəm ki, biz GUAM-sız da keçinə bilərik. Əgər həmin ölkələrin bizimlə bağlı siyasətində ciddi dəyişikliklər olarsa, bundan sonra bizim yanımızda olacaqlarsa, bizim o təşkilatda qalmağımız, fəaliyyət göstərməyimiz mümkün ola bilər. Bununla belə düşünürəm ki, biz təşkilat çərçivəsində hansısa əlavə öhdəliklər götürmədən də fəliyyətimizi davam etdirə bilərik".

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzi direktorunun müavini, politoloq Fuad Çıraqov hesab edir ki,** GUAM çərçivəsində qarşılıqlı öhdəliklərdən başqa, quruma daxil olan ölkələrin hər biri ilə Azərbaycanın ikitərəfli əsasda çoxsaylı müqavilələr üzrə qarşılıqlı öhdəlikləri mövcuddur: "Ötən müddət ərzində Azərbaycan həmin ölkələrin hər biri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və dərinləşməsi istiqamətində çoxsaylı təşəbbüslər irəli sürmüş və əlindən gələni etmişdir. Azər-



baycan müxtəlif beynəlxalq platformalarda bu ölkələrin milli maraqları ilə bağlı təkcə prinsipial mövqe ortaya qoymamış, həm də həmin ölkələrin ən çətin zamanlarında etibarlı tərəfdaş kimi əməli yardım etmişdir.

Azərbaycan özünün xarici siyasətində həqiqi müstəqil dövlətin lakmus kağızı olan ikitərəfli münasibətlərini üçüncü tərəfin əsiri etməmişdir. Yəni, Azərbaycan GUAM ölkələrinin Rusiya ilə münasibətlərinin hətta açıq qarşıdurma və müharibə səviyyəsində olduğu zamanlarda da onlara yardımlar etmişdir. Hərçənd ki, Azərbaycanın o ölkələrə yardımlar etməsi normal münasibətlərdə olduğu Rusiyada bəzi dairələrin ciddi narazılığına səbəb olmuş, hətta Moskva ilə münasibətləri bəzən təhlükə altına qoymuşdur. Ancaq Moskvada da yaxşı anlayır və hörmətlə yanaşırdılar ki, bu mövqe Azərbaycanın xarici siyasətinin dəyişməz prinsipindən irəli gəlir və heç kimə qarşı çevrilməyib. Azərbaycan vaxtilə Qərb Kosovanın müstəqilliyini tanımaqla və beynəlxalq hüququn fundamental prinsipi olan ərazi bütövlüyünü pozmaqla təhlükəli "Pandora qutusu"nu açarkən necə buna qarşı prinsipial mövqe ortaya qoymuşdusa, GUAM-a daxil olan ölkələrin ərazi bütövlüyü pozulanda da eyni prinsipial mövqe nümayiş etdirmişdi".

Fuad Çıraqov qeyd etdi ki, GUAM-a daxil olan ölkələr müstəqilliklərini bərpa etdikdən sonra həqiqi müstəqil dövlət olmaq sınağı ilə üz-üzə qaldılar. Bu müddət ərzində Azərbaycana da kənardan, eləcə də yad qüvvələrin dəstəyi ilə daxildən xarici siyasətini dəyişməyə çalışan müxtəlif qüvvələrin təzyiqləri oldu. Azərbaycan bu sınaqlardan üzüağ çıxaraq öz həqiqi müstəqilliyini sübut edə bildi və bu, ilk növbədə, həm də Bakının GUAM ölkələrinə müxtəlif formalarda dəstəyində özünü göstərdi: "Azərbaycana təzyiqlər hələ də davam etməkdədir. Ancaq belə görünür ki, GUAM ölkələri həqiqi müstəqilliklərini saxlaya bilməyib, bəzi ölkələrin təzyiqlərinə boyun əyiblər. GUAM ölkələrinin AŞPA-dakı mövqeyinin başqa cür izahı yoxdur. Əgər GUAM ölkələri xarici dövlətlərin iradəsinə boyun əyəcəklərsə, öz müstəqil mövqelərini ortaya qoya bilməyəcəklərsə və ən əsası Azərbaycanın onlara verdiyi dəstəyin, heç olmasa, yarısının əvəzini qaytarmayacaqlarsa, onda bu təşkilatda qalmağımıza nə ehtiyac var? GUAM təşkilat kimi ilk növbədə, bu quruma daxil olan digər ölkələrin milli maraqlarına cavab verir. Əgər bu ölkələr həqiqi müstəqil olduqlarını sübut etmək və milli maraqlarına uyğun siyasət ortaya qoymaq istəyirlərsə, bu səhvi tezliklə aradan qaldırmaq üçün ən qısa zamanda əllərindən gələni etməlidirlər".

***Səxavət HƏMİD***
***XQ***

# Milli Məclisin yaz sessiyasının ilk plenar iclası



**Fevralın 1-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keşirilib.**

S.Qafarova son vaxtlar ölkəmizə qarşı əsassız təzyiq və təhdid edən bəzi beynəlxalq təşkilatların, xüsusilə AŞPA-nın qərəzli və ədalətsiz mövqeyinə münasibət bildirib.

Parlamentin Sədri Azərbaycanın AŞPA – dakı nümayəndə heyətinin təşkilat ilə əməkdaşlığının və onun fəaliyyətində iştirakının dayandırılmasnıdan danışarkən deyib ki, şübhəsiz, deputatlar həm nümayəndə heyətimizin bəyanatı, həm də quruma üzv olan dövlətlərin parlament sədrlərinə göndərdiyim məktubla tanışdırlar. Bu qərar Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini mübahisə predmetinə çevirmək üçün ölkəmizə qarşı irəli sürülmüş əsassız və qondarma ittihamlara cavab olaraq qəbul edilmişdir.

Qeyd edildi ki, Avropada müəyyən qüvvələr 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə heç cür barışa bilmirlər. Parlament Assambleyasının və bütövlükdə, Avropa Şurasının nüfuzuna zərbə vuran son hadisə sübut etdi ki, indiki dövrdə bu təşkilatı onun bütün üzvlərinin rəyinə hörmət mühitinin hökm sürdüyü həqiqi dialoq və əməkdaşlıq platforması adlandırmaq çətindir.

Sonra S.Qafarova sessiyalar arasındakı dövrdə Milli Məclisdə bir sıra mühüm görüşlərin keçirildiyini və danışıqlar aparıldığını xatırlatdı. O, həmçinin xarici səfərləri və parlamentdə keçirilən qəbullar barəsində də məlumat verdi.

Sədr yaz sessiyasında qanun layihələrini müzakirə və qəbul etməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatının da dinləniləcəyini də bildirdi. Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2023-cü ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə milli koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun illik hesabat, məlumat və məruzələri də dinləniləcək.

Sonra deputatlar cari məsələrə münasibətlərini bildirdilər. Qeyd olundu ki, AŞPA və digər qərəzli beynəlxalq təşkilatların ölkəmizə təzyiq vasitələri onların ermənipərəst mövqeyindən və Azərbaycanın uğurlarını qəbul edə bilməmələrindən irəli gəlir. Bu gün biz dünya ictimaiyyətindən, o cümlədən, Avropa ölkələrinin parlamentlərindən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması təşəbbüslərinə dəstək gözlədiyimiz halda, bir çox ölkələr və beynəlxalq təşkilatlar tamamilə əks mövqedən çıxış edirlər. Ermənistanın sürətlə silahlandırılması, parlamentlər və beynəlxalq qurumlar çərçivəsində bizə qarşı qəbul olunan qətnamələr region xalqlarının maraqlarına və sülh gündəliyinə xidmət etmir.

Çıxışlar başa çatdıqdan sonra S.Qafarova gündəliyə 10 məsələ daxil edildiyini və ilk 3 məsələnin Milli Məclisin qərar layihələri olduğunu bildirdi.

Müzakirələrdən sonra Milli Məclisin İntizam və hesablayıcı komissiyalarının formalaşdırılması haqqında qərar qəbul edildi.

Bununla da Milli Məclisin yaz sessiyasının ilk plenar iclası başa çatdı.

***Ə.BƏDƏLOV***
***XQ***

# COP29-a hazırlıq müzakirə edilib



**Fevralın 1-də Xarici İşlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşüb.**

Görüşdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı hazırlıq işləri və təşkilati məsələlər müzakirə edilib.

Nazir Ceyhun Bayramov ölkəmiz tərəfindən, xüsusilə son dövrlərdə ətraf mühitin mühafizəsi, bərpaolunan enerji mənbələrinə keçid üzrə əməli addımların atıldığını, ötən il keçirilən COP28 Sammitində Azərbaycanın bir sıra qlobal öhdəliklərə qoşulduğunu diqqətə çatdırıb.

İcraçı katib Saymon Stil Azərbaycan tərəfindən COP29-a evsahibliyi çərçivəsində aparılan hazırlıq işlərinin yüksək peşəkarlıqla davam etdirilməsinin məmnunluq doğurduğunu vurğulayıb. COP29-un təşkili ilə bağlı ölkəmizə uğurlar arzulayan icraçı katib bu istiqamətdə görülən işlərə katiblik tərəfindən yaxından töhfə veriləcəyini bildirib.

***

Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ceyhun Bayramov müxtəlif ölkələrin parlamentləri arasında şəbəkələşmə, fikir mübadiləsi və təmasların qurulmasına töhfə verməsi baxımından Parlamentlərarası İttifaqın mühüm mandata sahib olduğunu vurğulayaraq, ölkəmizin də İttifaqın fəaliyyətində aktiv iştirak etdiyini bildirib.

Ölkəmizin 2024-cü ildə BMT sisteminin ən irimiqyaslı tədbiri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini xatırladan nazir bu istiqamətdə görülən hazırlıq işləri barədə ətraflı məlumat verib, Parlamentlərarası İttifaqın tədbirdə yaxından təmsil olunacağına ümidvarlığını vurğulayıb.

Baş katib Martin Çunqonq ölkəmizə növbəti səfərindən məmnunluğunu ifadə edərək, Parlamentlərarası İttifaqın Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlı olduğunu bildirib. Cari ildə COP29-a evsahibliyi edəcək Azərbaycanın uğurlu sədrliyinə inandığını deyən Baş katib sözügedən tədbirin təşkilatçılığı ilə bağlı əvvəlki sədrliklərlə yaxın təmasların qurulmasının Azərbaycanın görülən işlərə münasibətdə sistematik yanaşma nümayiş etdirdiyini bildirib.

***XQ***

# İrəvan – Moskva siyasi iqlimində "buzlaşma dövrü"

## BCM-in Roma Statutu Ermənistanda qüvvəyə mindi



**Ötən ilin oktyabrında Ermənistan parlamentinin beynəlxalq əlaqələr komissiyasının sədri Sarkis Xandanyan bildirmişdi ki, hələ ki vaxt var, Rusiya Ermənistanla Roma Statutundan yan keçməklə bağlı saziş imzalaya bilər. Amma dünəndən vaxtı bitmiş saymaq olar. Çünki Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu Ermənistanda rəsmən qüvvəyə mindi.**

Əvvəla, onu deyək ki, Ermənistan sənədə qoşulmaq baxımından Şərqi Avropa qrupunda 19-cu, dünyada isə 124-cü ölkədir. Xandanyanın aylar əvvəl haqqında söz açdığı sazişə gəldikdə isə heç şübhəsiz, belə bir təklifin irəli sürülməsi manipulyasiya idi. Ermənistan parlamentinin spikeri Alen Simonyan sonradan bu manipulyasiyanın ayrı-ayrı tərəflərinə aydınlıq gətirdi və onun sözlərindən belə çıxdı ki, İrəvan Roma Statutu mövzusunda Moskva ilə məzələnir.

Əlbəttə, Rusiya üçün Ermənistan qatarı gedib və onu hansısa müqavilə ilə geri qaytarmaq mümkünsüz görünür. Roma Statutunun ratifikasiyası isə obrazlı desək, qatarın daha yüksək sürət yığmasıdır. Xandanyan və Simonyan isə Kremlə vaqonlardan birinə çatmağı məsləhət görərkən siyasi tərbiyəsizlik ediblər. Məşhur Azərbaycan filmi "O olmasın, bu olsun"da deyildiyi kimi, "mənə meymun deməyin az deyil, hələ bir əl də verirsən?"

Bəli, rəsmi Moskva İrəvanın BCM-in Roma Əsasnaməsini ratifikasiya etməsini, bu məhkəmə instansiyasının Rusiya rəhbərliyinə qarşı qeyri-qanuni saydığı qərarları fonunda, qəbuledilməz adlandırıb. Bu barədə, eyni zamanda, S.Xandanyanın səsləndirdiyi təkliflə əlaqədar digər məqamlardan söz açacağıq.

Problemin mahiyyəti isə ondadır ki, BCM Rusiya Prezidenti Vladimir Putinin və digər ölkə rəsmilərinin həbsinə order verib. Deməli, artıq V.Putun Ermənistan ərazisinə daxil olsa, tutulacaq. Yəqin, bunun nə demək olduğunu təsəvvür edirsiniz. Yəni, tarixən Cənubi Qafqazla bağlı olan Rusiya dövlətinin liderinin regionun ölkələrindən birinə ayaq basa bilməməsi adi hadisə qismində dəyərləndirilməməlidir. Hər halda, Ermənistanın necə bir odla oynadığının əlavə sübuta ehtiyacı yoxdur...

Əlqərəz, 2023-cü ilin sentyabrında Ermənistan parlamentinin Dövlət hüquq məsələləri üzrə komissiyasının rəhbəri Vladimir Vardanyan bəyan edib ki, BCM-nin Roma Əsasnaməsinin 98-ci maddəsi sənədin ratifikasiyasından sonra Ermənistan – Rusiya münasibətlərinə təhlükəni aradan qaldırmağa imkan verir. O, qanunun həmin maddəsi əsasında, ABŞ vətəndaşlarına məhkəmənin yurisdiksiyasından toxunulmazlığa zəmanət verən ikitərəfli sazişlərin bağlanması üzrə Amerika praktikasına toxunub. Vardanyan xatırladıb ki, Ermənistan artıq bu maddə əsasında ABŞ-la müqavilə imzalayıb və sənəddə məhkəmənin prioritetini tanımaq istəməyən ölkələrlə analoji sazişlərin bağlanması qadağan edilmir.

Lakin həmin ilin oktyabrında Rusiya Federasiyası Xarici işlər nazirinin müavini Mixail Qaluzin RBK-ya müsahibəsində deyib ki, Moskva İrəvanın Roma Əsasnaməsinin ratifikasiyasından sonra məsələlərin həlli üçün saziş bağlamaq ideyasını ciddi qəbul etmir. Onun sözlərinə görə, Rusiya tərəfi Ermənistanın sənədin qəbulundan çəkinəcəyini gözləyirdi, çünki BCM-in qaydaları Roma Nizamnaməsini imzalamayan ölkələr üçün də bu məhkəmənin xidmətlərinə müraciət imkanlarını tanıyır. Yəni, Roma Statutunu ratifikasiya etmədən belə BCM-yə üz tutmaq mümkündür. Qaluzinin söylədiklərindən çıxan yekun qənaət: Ermənistan sırf siyasi mahiyyətli qərar verir, Qərbin anti-Rusiya cəbhəsinə sadiqlik nümayiş etdirir...

Bundan əvvəl isə Ermənistanın baş naziri Nikol Paşinyan bildirmişdi ki, İrəvan BCM-in Roma Əsasnaməsini ratifikasiya etmək qərarına ona görə gəlib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsilçilik və Ermənistan – Rusiya tərəfdaşlığına dair sənədlər respublikanın təhlükəsizliyinin təminatı üçün yetərsizdir. Baş nazirin fikrini dolayısı ilə parlamentin spikeri Alen Simonyan da təsdiqləyib. O, Azərbaycanı nəzərdə tutaraq, "Ermənistana qarşı hərbi cinayətlər törədilib və törədilir" deyə fikir bildirib. Ümumən, erməni rəsmilərin dediklərindən belə çıxır ki, Roma Əsasnaməsinin ratifikasiyası İrəvana Bakını beynəlxalq məhkəmələrə çəkmək üçün dividend qazandıracaq...

Ümumən onu da bildirək ki, Rusiya tərəfi indiyədək Ermənistanın sənədi ratifikasiya planlarını bəyənmədiyini dəfələrlə vurğulayıb. Məsələn, aylar öncə ölkənin Xarici İşlər Nazirliyindəki mənbə RİA Novostiyə bildirmişdi ki, Moskva İrəvanın Roma Əsasnaməsinə qoşulmaq planlarını Rusiya rəhbərliyinə qarşı qanunsuz məhkəmə "əmrləri" fonunda qəbuledilməz sayır. Mənbə onu da vurğulamışdı ki, erməni həmkarlarına Rusiya ilə ikitərəfli münasibətlər üçün mümkün addımların mənfi nəticələri barədə xəbərdarlıq edilib.

Rusiyanın Roma Statutuna etirazı fonunda daha bir cəhətə diqqət yetirək. Belə ki, 2023-cü il sentyabrın 8-də Ermənistanın Rusiyadakı səfiri Vaqarşak Arutyunyan Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb və orada səfirə İrəvanın bir sıra "dostluqdan kənar addımlar"ı, o cümlədən, Roma Statutunun ratifikasiyası prosesinin başlanmasının zərərləri izah olunub.

Bundan başqa, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova İrəvanın BCM-in Roma Əsasnaməsini ratifikasiya prosesini, Ukrayna ilə təmaslarını və Ermənistanın ABŞ-la keçirdiyi təlimləri şərh edərkən bildirib ki, rəsmi İrəvan bu cür addımlarla Vaşinqtonun və Brüsselin Rusiyaya qarşı düşmənçilik siyasətini davam etdirməsinə əlverişli şərait yaradır..

Qeyd edək ki, Ermənistan parlamenti ötən il oktyabrın 3-də Roma Statutunu ratifikasiya edib. Hakim "Vətəndaş sazişi" Partiyasının 60 deputatı BCM-ə qoşulmağa səs verib. Parlamentdə təmsil olunan müxalifət qüvvələri sənədin ratifikasiyasının əleyhinə çıxıblar. Məsələn, "Ermənistan" müxalifət fraksiyasının nümayəndəsi Artsvik Minasyan bildirib ki, Roma Əsasnaməsinin ratifikasiyası proseduru ölkə konstitusiyasına ziddir və onu təsdiq edən hakim partiyadan olan deputatlar öz səlahiyyətlərini aşıblar. Digər müxalif "Mənim şərəfim" fraksiyasının lideri Hayk Mamicanyan da prosesi konstitusiyaya zidd adlandırıb. O, aydınlaşdırıb ki, hələ 2004-cü ildə Ermənistan konstitusiya məhkəməsi Roma Statutunu ölkənin əsas qanunlarına uyğunsuz saymışdı. Mamicanyanın fikrincə, Konstitusiya Məhkəməsinin qərarları qəti olub və qurumun yenidən eyni məsələyə qayıtması yolverilməzdir.

Ancaq məlum olduğu kimi, ötən ilin aprelində, yəni parlamentin ratifikasiyasından əvvəl Konstitusiya məhkəməsi Roma Statutunun Ermənistanın yurisdiksiyasına uyğunluğuna dair qərar çıxarmışdı. Beləliklə, ratifikasiyaya doğru yol başlanmışdı.

Yeri gəlmişkən, Ermənistanda Roma Statutuna qarşı çıxanlar arasında ölkənin keçmiş prezidenti Serj Sarkisyanın Respublika partiyası da var. Bu partiya bildirib ki, hakimiyyətin hazırkı geosiyasi şəraitdə sənədi ratifikasiya qərarı gözlənilməz nəticələrlə doludur. Çünki partiya BCM-in çox siyasiləşmiş qurum olduğu qənaətindədir.

Sarkisyanın partiyası, həmçinin, BCM-in nizamnaməsinin BMT Təhlükəsizlik Şurasının daimi üzvləri – ABŞ, Çin və Rusiya kimi güclü dövlətlər tərəfindən ratifikasiya olunmadığına diqqət çəkib və bəyan edib ki, Roma Əsasnaməsinin qəbulu Ermənistan – Rusiya münasibətlərinə çox ağır zərbə vuracaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Fransa Korsika azadlıq hərəkatını beşiyində boğur

**(əvvəli 1-ci səhifədə)**

Fransanın 1524-cü ildən başlanan müstəmləkəçiliyi Afrikanın 35 faizini əhatə edib. Seneqal, Fil Dişi Sahili və Benin kimi ölkələr Fransanın qul ticarəti mərkəzləri kimi istifadə olunub, bölgənin bütün resursları istismar edilib. Əsrlərlə davam edən müstəmləkəçilik dövründə milyonlarla afrikalı həyatını itirib. Bəşər tarixinin ən böyük soyqırımlarından olan və 800 min insanın həlak olduğu 1994-cü il Ruanda soyqırımında Fransanın rolu üzə çıxıb. 1945-ci il mayın 8-i Fransanın Əlcəzairdə soyqırımının başladığı gündür. Bu soyqırımında milyonlarla müsəlman əlcəzairli məhv edilib.

İndi Fransa müstəmləkələri azadlıq, müstəqillik uğrunda mübarizəyə başlayıblar. Bir sıra Afrika dövlətləri Fransa qoşunlarının ölkədən çıxarılmasına nail olublar. Ölkənin daxilindəki xalqlar da azadlıq mübarizəsinə qoşulmaqdadırlar. Artıq korsikalılar öz hüquqlarını bərpa etmək üçün "Naziona" hərəkatı yaradıblar. Bu yeni müstəqillik hərəkatının yüzə yaxın üzvü və tərəfdarı yanvarın 30-da Korsikanın Bastia kommunasında polis idarəsi qarşısında etiraz aksiyası keçirərək, bir neçə gün əvvəl iki fəalının polis tərəfindən həbs olunmasına etiraz edib. "Corse Matin" qəzetinin yazdığına görə, etiraz aksiyasında Bastia bələdiyyəsinin üzvləri, o cümlədən, bələdiyyə sədri Pyer Savelli, onun müavini Pol Tyeri və gender bərabərliyinə cavabdeh olan bələdiyyə müşaviri Lauda Guidiçelli də iştirak ediblər. Cəmi bir neçə gün əvvəl – yanvarın 28-də yaradılmış "Naziona" hərəkatı həbs edilmiş iki üzvünə dəstək verdiyini açıqlayıb və Bastia polis idarəsindən onların azad edilməsini istəyiblər.




Hərəkatın bununla bağlı yaydığı və mətbuatda dərc edilmiş bəyanatında deyilir: "Biz liderlərimizin həbs edilməsini ən sərt şəkildə qınayırıq: qapılar sındırılıb, evlər dağıdılıb, atalar uşaqlarının gözləri qarşısında yerə yıxılaraq, alçaldılaraq həbs ediliblər".

"Patriotti" təşkilatı özünün "Facebook" səhifəsində polisin fəallardan birinin evinə vəhşicəsinə hücum edərək, qapıları sındırdığını nümayiş etdirən fotolar yerləşdirib: "Bu səhər "Naziona" hərəkatının Baş Assambleyasının təsis edilməsinə Fransa dövləti təxribatla cavab verdi. Bu həbslər Fransanın öz xalqı uğrunda mübarizə aparan korsikalılara qarşı 254 illik repressiyasının bir hissəsidir. "Naziona" təxribatlara cavab verəcək!" – deyə nəşr yazıb.

Xatırladaq ki, Bastia kommunasındakı etiraz aksiyası zamanı nümayişçilər yeni hərəkata qarşı hökumətin aqressiv həbs və repressiya üsullarını pisləyiblər. Aksiyada iştirak edən "Naziona" hərəkatının ərazi şurasının üzvü Jozefa Cakometti Piredda fəalların həbsini qınayıb. "Təhdid və təxribatlar qəbuledilməzdir. Lakin onlar öz məqsədlərinə nail ola bilmədilər. Biz sakit və israrlıyıq", – Piredda bildirib.

Bundan əlavə, bir sıra digər təşkilatlar da hökumətin yeni yaranmış hərəkata qarşı aqressiv siyasətini, üzvlərin qeyri-qanuni olaraq həbsini və polis qüvvələrinin zorakı hərəkətlərini pisləyiblər. Korsika İşçiləri İttifaqı (Sindicatu di i Travagliadori Corsi - STC) də "Naziona" hərəkatını dəstəklədiyini bəyan edib: "Paris repressiyaların səviyyəsini artırmaqla Korsikadakı azadlıq və demokratiya ab-havasını zəiflətmək istəyir. Ölkəmizdə davamlı sülhün bərqərar olması üçün bu çirkin manipulyasiyalara dərhal son qoyulmalıdır".

Qeyd edək ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə Fransanın müstəmləkəçilik siyasətini dəfələrlə pisləyib. Bakıda bununla bağlı böyük konfrans baş tutub. Bakı təşəbbüs qrupunun təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan, Böyük Britaniya, Əlcəzair, Keniya, Fransa, Mərakeş, Mali, Efiopiyadan, eləcə də Fransanın dənizaşırı əraziləri olan Fransa Qvianası, Fransa Polineziyası, Qvadelupa, Martinika, Yeni Kaledoniyadan, həmçinin Fransanın xüsusi statusa malik 18 regionundan biri Korsika adasından olan nümayəndələr iştirak ediblər.

Çıxış edənlər Fransanın müstəmləkəsi altında olan dövlətlərdə və ərazilərdə apardığı etnik təmizləmə, insan haqlarının ciddi şəkildə pozulması barədə faktları diqqətə çatdırıblar. Bakı təşəbbüs qrupu Qoşulmama Hərəkatının müstəmləkəçilik və yeni-müstəmləkəçilik təcrübələrinə qarşı mübarizədə prinsipial mövqeyinin əsaslılığını və aktuallığını təsdiqləyib, Fransanın xaricdəki müstəmləkələrində ədalət və azadlıq uğrunda mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq barədə razılığa gəliblər.

***P.ƏMİRCANOV***
***XQ***

# Erməni nəşrinin ekofəallarla bağlı repressiya çağırışı

## "Azərbaycana işləmək" ittihamı kimin sifarişidir?

**Ermənistan yaşadığımız Cənubi Qafqaz regionunda böyük ekoloji təhlükə mənbəyidir. Bununla bağlı indiyədək çox yazılıb və deyilib, müxtəlif misallar çəkilib. Yazımızda birbaşa onların üzərində dayanmaq istəmirik. Mövzumuz bir qədər konkretdir.**

Ancaq azərbaycanlı ekofəalların 2022-ci ilin dekabrından 2023-cü ilin aprelinədək Laçın–Xankəndi yolunun üzərində həyata keçirdikləri etiraz aksiyasının əhəmiyyətini vurğulamalıyıq. Məlum olduğu kimi, aksiya Qarabağdakı sabiq separatçı rejimə də böyük zərbə vurmuş, ümumən, Ermənistanın ekoloji terrorunun yaratdığı fəsadların dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynamışdı.

Deyəsən, Azərbaycanın ekoloji müstəvidə İrəvana qarşı apardığı fəaliyyət, yəni onun dövlət səviyyəsində ətraf mühitə vurduğu ziyanın ifşası istiqamətində gördüyü işlər Ermənistana da təsirini göstərib. Əlbəttə, erməni nəşri olan "Hraparak"ın yazdıqları sırf qeyd etdiyimiz xüsusda deyil. Nəşr aşkar təxribatçı mövqe tutmaqdadır. Ancaq onun ortaya çıxardığı bir həqiqət var – Ermənistan hakimiyyətinin ekologiyaya vurduğu ziyan ölkənin ətraf mühitlə bağlı qeyri-hökumət təşkilatlarını hərəkətə keçirib. Onlar özlərinin haqq səslərini ucaldırlar. Təəssüf doğuran məqam isə budur ki, "Hraparak" məsələni Azərbaycanın apardığı "anti-Ermənistan təbliğatının" nəticəsi kimi dəyərləndirir və ölkənin hüquq-mühafizə orqanlarını belə təmayüllərlə mübarizəyə çağırır. Təxribat da elə budur.

Bəli, "Hraparak" bildirir ki, Azərbaycan ekoloji problemlər pərdəsi altında, guya, Ermənistanın dağ-mədən sənayesinə qarşı sistemli mübarizəyə başlayıb. Ölkədəki bəzi ekoloji təşkilatlar isə prosesə töhfə verməkdədirlər: "İş o yerə çatıb ki, Azərbaycan erməni QHT-lərinin araşdırmalarına əsaslanaraq, Hayastanın Qafqazda fəlakətli ekoloji vəziyyət yaratdığına dair bəyanatlar səsləndirir, mədənlərimizin bağlanmasını tələb edir, hətta, Qarabağda və Şərqi Zəngəzurda ətraf mühitin və biomüxtəlifliyin məhvinə görə Ermənistana qarşı təzminat tələbi ilə məhkəmə iddiaları da qaldırır".

"Hraparak" məqaləsində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun söylədiklərindən də iqtibas gətirib. Qeyd edək ki, C.Bayramov bir müddət əvvəl Azərbaycan dövlətinin ölkəmizə dəymiş külli miqdarda ekoloji ziyana görə Ermənistana qarşı məhkəmə iddiası qaldırdığını bildirmişdi. O, tarixdə ilk dəfə Bern Konvensiyasına uyğun olaraq Ermənistanla əlaqədar arbitraj prosesinin başladıldığını diqqətə çatdırmışdı. "Hraparak" isə vurğulayır ki, erməni QHT-ləri xarici təşkilatlarla əməkdaşlıq edərək, habelə müsahibələr verməklə, bəyanatlar səsləndirməklə, "flora və faunanı, yaşayış yerlərini qorumaq məqsədilə" Bakının İrəvana qarşı hərəkatını dəstəkləyirlər.



"Hraparak" məqaləsində qızıl mədəni olan Amulsarın istifadəyə verilməsindən sonra Azərbaycan mediasında mədənin istismarının regionun təbiətinə, insanların səhhətinə ziyan vurmasına dair fikirlərin yayılmasına diqqət çəkir. Qəzet, eyni zamanda, həmin vaxt Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın regionun yaşayış mühitinə və faunasına ciddi ziyan vurduğunu, təbii sərvətlərin istehlakına və biomüxtəlifliyin məhvinə səbəb olduğunu vurğulayan bəyanatla çıxış etdiyini xatırladır. Ən əsası isə nəşr bildirir ki, o zaman erməni QHT-ləri, demək olar ki, eyni məzmunlu bəyanatlar verməyə başlamışdılar.

Erməni qəzetində ölkəmizə məxsus ekoloji təşkilatların təmsilçilərinin fikirlərinə də yer verilib. Həmin fikirlərdə azərbaycanlı ekofəalların təşəbbüslərinin Ermənistanda da ciddi nəzərə alındığından, ölkənin ekoqurumları nümayəndələri tərəfindən ətraf mühitin korlanmasına qarşı etiraz səslərinin ucaldıldığından söz açılıb. Nəşr, bütün bunları nəzərə alaraq, erməni ekofəallara qarşı repressiv metodların seçilməsini təlqin edib. Qəzet onların, guya, Azərbaycan dövlətinə işlədiklərinə eyham vurmağa başlayıb. Doğrudur, media orqanı məsələni qəti şəkildə qoya bilmir. Heç şübhəsiz, sübutu yoxdur. Sadəcə, mənfi rəy formalaşdırmağa çalışır, necə deyərlər, şübhə toxumları səpir: "Biz erməni ekoloqlarının Azərbaycanla və Azərbaycan üçün işlədikləri barədə uzağa gedən nəticələr çıxarmaq istəmirik. Hesab edirik ki, Ermənistanın bu yaxınlarda yaradılmış Əks-Kəşfiyyat Xidməti və Milli Təhlükəsizlik Xidməti duruma maraq göstərməlidir. Onlar Ermənistanda fəaliyyət göstərən və bu yaxınlarda Amulsarın istismarına qarşı bəyanat verən 100-dən çox QHT-nin kimin maraqlarına xidmət etdiyini öyrənməlidirlər".

Ümumən, Ermənistanın istər indiki, istərsə də əvvəlki hakimiyyətinin təmsilçiləri özlərinin şəxsi mənafeləri naminə müxtəlif faydalı qazıntı yataqlarının istismarı zamanı heç bir qayda gözləməyiblər. Ötən il erməni hökumətinin ABŞ şirkəti ilə birgə Naxçıvana yaxın bölgədə zavod tikintisi də bundan xəbər verməkdədir. Məlum olduğu kimi, Azərbaycanın ciddi ertirazından sonra zavodun başqa yerdə inşasına qərar verilmişdi. O da məlum idi ki, sözügedən müəssisənin tullantılarının çaya axıdılması nəzərdə tutulurdu. Həmin çay isə Azərbaycan ərazisinə axırdı.

Qeyd edək ki, işğal illərində ermənilərin Oxçuçayı çirkləndirdikləri də danılmaz həqiqətdir. Belə bir durumda Ermənistanda Azərbaycanın qəsdən Ermənistanın dağ-mədən sanayesinə zərbə vurduğuna dair fikirlərin gündəmə gəlməsi də təsadüfi sayılmamalıdır. Görünür, erməni iqtidarındakı və ona yaxın dairələrdəki şəxslər, necə deyərlər, kasıblaşıblar. Ona görə Azərbaycanın Ermənistana qarşı kampaniyası üzərində "şou" qurub, reallıqların təhrifinə baş vururlar. Əlbəttə, belələrini ekologiya, ətraf mühit əsla maraqlandırmır. İstəkləri asan qazanc əldə etməkdir...

Bəli, Ermənistanda müəyyən şəxslər bildirirlər ki, Azərbaycanın ekoloji müstəvidəki etirazı Ermənistanın inkişafının qarşısını almağa yönəlib. Bunu "Hraparak"a açıqlama verən Ermənistan Mədənçilər və Metallurqlar İttifaqının rəhbəri, Zəngəzur Mis-Molibden Kombinatının baş direktorunun birinci müavini Vardan Canyan da vurğulayıb. Onun sözlərinə görə, Azərbaycanın başlatdığı kampaniyanın məqsədi budur: "Azərbaycan arzulayır ki, Ermənistan iqtisadi artıma malik olmasın, hərbi baxımdan rəqibə çevrilməsin".

Göründüyü kimi, xəstə hay cəmiyyətinin beyin qanaması keçirən təmsilçiləri Ermənistandakı pozitiv qüvvələrə qarşı demarş yolu tuturlar. Onlar fərqinə varmırlar ki, üzərində gəzdikləri torpağı, nəfəslərinə çəkdikləri havanı qorumaq lazımdır. Təbiətlərinə heyvani instinktlərin hakim kəsildiyi bu məxluqlar üçün yalnız ambisiya var. "Hraparak"ın qopardığı şivən də, əslində, şivəndir, erməni avantürizminin təzahür formasıdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Türkiyənin Naxçıvanda xilaskarlıq missiyası

## I. Qədim diyar daşnak quldurların hədəfində

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixli Sərəncamı Azərbaycanın bu qədim diyarının son 1 əsrdəki keşməkeşli tarixinə bir daha nəzər salmağı, onun ana Vətənlə sıx bağlılığına, muxtariyyət statusuna gətirən mübarizə yoluna və ondan sonrakı mürəkkəb dövrün şərəfli və bəlalı gedişatına tarixi səyahət etməyi gündəmə gətirir.**

Əvvəla, vurğulamaq istərdim ki, tarixçilərimiz həm sovet dövründə, həm də müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının, onun tarixinin ayrı-ayrı mərhələlərinin tədqiqi sahəsində gərəkli işlər görmüşlər. Bu sahədə ilk tədqiqatçılar sırasında Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (sonra Naxçıvan Dövlət Universiteti) sevimli müəllimimiz olmuş, tarix elmləri namizədi, dosent Əli Əliyevin (1905–1997) xüsusi yeri və xidməti vardır. Bu fədakar alim 1941–1970-ci illərdə Muxtar Respublikada yüksək dövlət vəzifələrində çalışmış, eyni zamanda, erməni-daşnak iddialarına və fitnələrinə qarşı hər zaman inadla elmi mübarizə aparmışdır.

Əli müəllim Naxçıvanda və digər bölgələrdə daşnak quldurlarının, onların liderlərinin xalqımıza qarşı kütləvi qətliamlar törətdiyini dəfələrlə SSRİ və Azərbaycan SSR rəhbərliyinə yazdığı məktublarında faktlarla göstərmiş və kəskin ittiham etmişdir. Sarsılmaz milli mövqeyinə görə daim təqiblərə məruz qalmasına baxmayaraq əqidəsindən dönməyən Əli Əliyev Naxçıvanın XX əsr tarixinin gizli saxlanılan səhifələrinə öz tədqiqatları ilə işıq salmışdır.



1917-ci il oktyabr bolşevik çevrilişindən sonra Qafqazın digər xalqları kimi Azərbaycan xalqı da öz müqəddəratını təyin etmək üçün mübarizəyə qalxdı. Əli Əliyevin şahidi olduğu və qələmə aldığı kimi, 1917-ci ilin sonlarında ermənilərin Naxçıvana qarşı iddialarının xüsusilə güclənməsi 1918-ci ilin əvvəllərində artıq real təhlükəyə çevrildi, daşnakların silahlı dəstələri türklərlə mübarizə adı altında Naxçıvanın ərazisinə soxulub soyqırımı keçirməyə başladılar. Yalnız Naxçıvan bölgəsində 73 min 727 nəfər Azərbaycan türkü qətlə yetirildi. 1917-ci ilin sonlarından 1918-ci ilin aprelinədək ermənilər Naxçıvanın da daxil olduğu və əhalisinin böyük əksəriyyətini Azərbaycan türklərinin təşkil etdiyi İrəvan quberniyasında 197 kəndi talan etdilər və etnik təmizləmə apardılar.

1917-ci ildə Rusiyada oktyabr çevrilişindən sonra bolşeviklərin çağırışı ilə Birinci Dünya müharibəsində, o cümlədən, Rusiya–Türkiyə cəbhəsində vuruşan rus əsgərləri evlərinə döndülər. Türkiyə ilə Rusiya arasında 18 dekabr 1917-ci ildə Ərzincanda bağlanan saziş müharibəyə son qoydu. Lakin rus ordusundakı on minlərlə silahlı erməni əsgər və zabiti hərbi əvvəlindən işğal altında olan, bir çox qismi isə hələ 1877–1878-ci illər müharibəsində istilasına məruz qalan Osmanlı torpaqlarında türk-müsəlman əhalini ucdantutma qırırdı.

Onlar rus ordusunun tərk etdiyi bu torpaqlarda gələcək "Böyük Ermənistan" qurmağı planlaşdırırdılar. Vladimir Leninin başçılıq etdiyi RSFSR Xalq Komissarları Sovetinin 29 dekabr 1917-ci il tarixli "Türkiyə Ermənistanı haqqında" dekreti bilavasitə buna xidmət edirdi. Elan edildi ki, Rusiyanın fəhlə və kəndli hökuməti "Türkiyə Ermənistanı" ermənilərinin tam müstəqilliyə qədər azad surətdə öz müqəddəratını təyinetmə hüququnu müdafiə edir.

Bölgəyə qoşun yeritmək, erməni "xalq milisi" yaratmaq, müxtəlif ölkələrdəki erməniləri buraya köçürmək və s. məkrli məqsədlər nəzərdə tutulurdu. Bütün bu vəzifələr Qafqaz işləri üzrə müvəqqəti komissar Stepan Şaumyana həvalə olunmuşdu. Bu işğalçı siyasətin qarşısını almaq üçün Türkiyənin 3-cü ordusunun komandanı Vehbi Mehmet paşa Birinci Dünya müharibəsində şücaət göstərmiş Kazım Qarabəkirin onun ordusuna verilməsini baş komandanlıqdan xahiş etdi. 28 yanvar 1918-ci ildə kurmay-albay K.Qarabəkir I Qafqaz Kolordusu komandanlığına təyin olundu.

Ağır qış şəraitinə baxmayaraq, K.Qarabəkirin kolordusu fevralın 13-də Ərzincanı, martın 12-də Ərzurumu, martın 13-də Həsənqalanı erməni işğalından azad etdi. Sonra isə 40 il Rusiya işğalı altında qalan, 1917-ci ilin oktyabrından isə ermənilərin işğalına düşən torpaqların azad edilməsinə başlandı. Aprelin 25-də Sarıqamış, ondan sonra Qars qalası azad edildi. Bu xidmətlərinə görə K.Qarabəkirə mirliva (general-paşa) rütbəsi verildi.

Kazım Qarabəkir paşanın qoşunları 1918-ci il mayın 15-də artıq Osmanlı dövlətinin Rusiya ilə 1877-ci illərdəki sərhədlərinə çıxaraq Gümrüyə (Aleksandropol) hücuma başladı. 9 lokomotiv, 120 vaqon, çoxlu top, tüfəng və sairə ələ keçirildi. K.Qarabəkir paşa mayın 20-də Gümrünü tutub, qərargahını burada yerləşdirdi. Bir həftə içərisində erməni ordusunu 60–70 km geriyə sıxışdıraraq İrəvanı və Eçmiədzini (Üçkilsə) almaq üçün əlverişli mövqe qazandı.

O zaman Türkiyə ərazisində ermənilərin Ermənistan dövləti yaratmaq planı türk ordusunun qətiyyətli zərbələri ilə puça çıxmış, ermənilər əsas mərkəzləri olan Gümrünü və bir sıra mövqelərini buraxaraq geri çəkilməyə məcbur olmuşdular. 1918-ci ilin mayında Tiflisdə istiqlalını elan edən Ermənistanın Osmanlı dövlətindən sülh istəməsindən başqa yolu qalmamışdı. Türkiyədə belə qəti mövqe formalaşmışdı ki, onun ərazisində Erməni dövlətinin yaradılmasından söhbət gedə bilməz. Belə bir dövlət yaranacaqsa, bu Rusiya işğalındakı Qafqazda mümkün ola bilər.

Türklər ermənilərin o zaman əsas istinadgahı sayılan Gümrünü isə bir daha əldən vermək niyyətində deyildilər. Buna görə Ermənistan Respublikası elan ediləndə bu ölkənin paytaxtının hara olacağı sual altında idi. Müəyyən tövsiyələr olsa da, İrəvanın ermənilərə verilməsi ilə əlaqədar Azərbaycan hökumətinə ciddi bir təzyiq yox idi. Türkiyə Ordusu tərəfindən sıxışdırılan və əsasən İrəvana və quberniyanın yaxın qəzalarına doluşan ermənilərin hərbi gücü olsa da, İrəvan və bütün vilayət hüquqi olaraq Azərbaycan torpağı idi və əhalisinin mütləq əksəriyyətini soydaşlarımız təşkil edirdi.

1918-ci ilin mayında Gürcüstanda və Ermənistanda olduğu kimi, Azərbaycanda da müstəqillik elan olundu. Keçmiş İrəvan xanlığının, və quberniyasının ərazisində yaradılan Ararat Respublikası (Ermənistan) hökuməti müstəqilliyini elan edən andan Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürdü. Daşnak hökuməti tabeliyində olan, dünya müharibəsində iştirak etmiş, eləcə də Türkiyəyə qarşı döyüşlərdə təcrübə keçmiş minlərlə silahlı əsgərlə Azərbaycan torpaqlarını zorla ələ keçirməyə başladı.

Belə bir şəraitdə 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının iclası keçirildi. Milli Şuranın üzvü Fətəli Xan Xoyski Milli Şura nümayəndələrinin erməni Milli Şurası nümayəndələri ilə Azərbaycanla Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi ilə əlaqədar aparılan müzakirələrin nəticəsi barədə məlumat verərək bildirdi ki, Aleksandropol Türkiyəyə keçdiyindən erməni dövlətinə siyasi mərkəz lazımdır. Belə mərkəz isə ancaq İrəvan ola bilər, ona görə bu şəhərin ermənilərə güzəşt edilməsi labüddür. Təklif səsə qoyulub qəbul edildi.

Sənəddən məlum olur ki, bu təklifin lehinə 16 nəfər səs vermiş, 1 nəfər əleyhinə olmuş, 3 nəfər səsvermədə iştirakdan imtina etmişdir. Deməli, həmin iclasda Milli Şuranın 28 üzvündən 20-si iştirak etmişdir.

Mayın 29-da, istiqlaliyyətin bəyan edilməsinin ertəsi günü Azərbaycan hökumətinin İrəvanı Ermənistana verdiyini elan etməsi nəinki erməniləri ərazi iddialarından çəkindirdi, əksinə, onların iştahını daha da artırdı. Azərbaycanın Baş naziri Fətəli xan Xoyski həmin günlərdə Batumda Milli Şura sədri Məhəmməd Əmin Rəsulzadə ilə bərabər, Osmanlı dövlətinin səlahiyyətli nümayəndələri ilə danışıqlarda iştirak edən xarici işlər naziri Məmmədhəsən Hacınskiyə Tiflisdən göndərdiyi teleqramında yazırdı: "Çox hörmətli Məmməd Həsən! Burada Azərbaycanın müstəqilliyi haqqında teleqramı göndərməyimizə müxtəlif manelər yaradırlar. Teleqramın mətnini rus və fransız dillərində Sizə göndərirəm ki, oradan radio ilə, birbaşa xəttlə Konstantinopola, oradan da radio ilə digər yerlərə ötürülsün. Teleqramı xarici işlər naziri olaraq tək özünüz imzalaya bilərsiniz. Nəsib bəy və Sultanov əhalini məlumatlandırmaq və hazırlamaq üçün Yelizavetopola yola düşdülər. Ermənilərlə bütün mübahisələri bitirdik, onlar ultimatumu qəbul edər və mübahisələrə son qoyarlar. Biz İrəvanı onlara güzəştə getdik".

Yeri gəlmişkən, qeyd edək ki, həmin akta Pezident İlham Əliyevin verdiyi qiymət tarixi reallıq və siyasi məzmun baxımından tamamilə obyektiv və ədalətlidir: "Sirr deyil ki, XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verilmişdir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranandan bir gün sonra, əfsuslar olsun ki, İrəvan şəhəri Ermənistana verildi. Halbuki, bunun heç bir əsası yox idi. Bu, qədim Azərbaycan şəhəridir... O qərara gəldikdə isə mən hesab edirəm və yəqin ki, hamı mənimlə razılaşar, o böyük bir tarixi cinayət idi, səhv yox, cinayət. Birincisi, İrəvanda o vaxt yaşayan azərbaycanlılardan soruşulmadı. İkincisi, nə qaçaqaç idi? Hara tələsirdilər?.. 1920-ci ilin aprelində sovetləşmədən sonra noyabr ayında artıq sovet hökuməti Qərbi Zəngəzurun böyük hissəsini Azərbaycandan qoparıb Ermənistana vermişdir".

Göründüyü kimi, Naxçıvanın Azərbaycanın əsas hissəsindən bu şəkildə ayrı salınması, eləcə də, Azərbaycanın Türkiyə ilə təbii sərhədlərinin əldən verilməsi Ermənistanın Naxçıvana olan iddialarını daha da körükləmişdi. 29 may 1918-ci ildə İrəvana sahib olandan sonra daha da şirnikləşən daşnaklar Naxçıvan, Zəngəzur, Qarabağ torpaqları hesabına Ermənistanı genişləndirmək, eyni zamanda rus, ingilis himayəsindən istifadə edərək Türkiyənin bir sıra şərq vilayətlərini ələ keçirmək niyyətində idilər.

Qayıdaq Naxçıvana erməni quldur basqınlarının törətdiyi fəlakətlərə. 1918-ci il may ayının sonlarında Naxçıvan bölgəsinin əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Osmanlı dövlətinin Şərq cəbhəsindəki 3-cü Ordu komandanı Mehmed Vehbi paşanın yanına nümayəndə heyəti göndərib erməni işğalına qarşı hərbi qüvvə ilə yardım göstərməyi xahiş etdi. Türkiyə ilə müharibədə məğlubiyyətin labüd olduğunu anlayan ermənilər 1918-ci il mayın 26-da müstəqil dövlətlərini elan edən kimi Türkiyə ilə sülh bağlamağın zərurətini başa düşüb barış istədilər.

Bu vaxtlar gürcülər də Türkiyə ilə müharibə vəziyyətində idilər. 1918-ci il iyunun 4-də Batumda Türkiyə dövləti Ermənistan və Gürcüstanla ayrı-ayrılıqda sülh müqaviləsi bağladı. Həmin gün Türkiyə ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında isə dostluq müqaviləsi bağlandı. Müqaviləni Azərbaycan Cümhuriyyəti adından xarici işlər naziri Məhəmməd Həsən Hacınski və Milli Şura sədri Məhəmməd Əmin Rəsulzadə imzaladılar.

Azərbaycan Xalq Cümhuriyyəti ilə Türkiyə arasında 4 iyun 1918-ci ildə Batumda bağlanan müqavilə üzrə qardaş ölkənin göstərdiyi əsgəri yardım milli istiqlalımızın qələbəsində, eyni zamanda, xalqımızın erməni və rus işğalından qorunmasında əvəzsiz rol oynadı. Hələ Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçürülməmiş Nuru paşanın komandanlığı ilə Azərbaycana yardıma gəlmiş Türk qoşunları Gəncədə yerləşib gözləyirdilər. Türk qoşunları Azərbaycana iki qrup halında gəlmişdilər. Birinci qrup Məhəmməd Əmin Rəsulzadənin "xilaskar mələk" adlandırdığı Nuru paşanın rəhbərliyi ilə 1918-ci il iyunun 7-də İran ərazisindən keçməklə Zəngəzur üzərindən, ikinci qrup isə iyunun 9-da Qazax üzərindən Gəncəyə çatmışdı. Vahiməyə düşən, bu hərbi yürüşdən həyəcanlanan Stepan Şaumyan təcili Leninə və Stalinə teleqram vurmuşdu: "Türklər Qarakilsədən, Dilicandan keçib Ağstafaya çatıblar. Oradan da birbaşa Bakıya və Culfaya gədəcəklər. Xəbər verirəm: hücum başlanmışdır".

Bu dövrdə erməni quldur Andranik bolşeviklərlə işbirliyi yaradaraq Naxçıvanı, Zəngəzuru ələ keçirmək üçün əməliyyatlara başlamışdı. Bakıdakı bolşevik hökumətinin başçısı S.Şaumyanın dəstək alan Andranik Şərur–Dərələyəz və Naxçıvan qəzalarında qanlı qırğınlar törətmişdi. Bölgəni kütləvi qırğından yalnız Türkiyə xilas edə bilərdi.

1918-ci il iyunun əvvəllərində 9-cu və 11-ci Türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət etdi. 1918-ci ilin iyun ayının 4-də xilaskar türk qoşunu Naxçıvana daxil oldu. Şəhər əhalisi türk qoşununu toy-bayramla qarşıladı, şəhərdə Türkiyə bayrağı qaldırıldı. Naxçıvan üzərində Türkiyə himayəsi bərqərar oldu. Türk qoşunları və Naxçıvanın yerli müdafiə qüvvələri daşnak quldur dəstələrini darmadağın edib bölgədən qovdular. Naxçıvanın 15 kəndini viran qoymuş Andranik bu məğlubiyyətdən sonra Zəngəzura doğru hərəkət etdi."

(ardı var)

***Eynulla MƏDƏTLİ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri dokroru***

# Naxçıvan MR Ali Məclisinin yaz sessiyası açılıb



**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının ilk plenar iclası keçirilib.**

Ali Məclis sədrinin müavini Anar İbrahimov altıncı çağırış sessiyanı açıq elan edərək bildirib ki, ötən il Ali Məclisdə fəaliyyətin qurulması istiqamətində mühüm işlər görülüb. Yaz sessiyasında isə əsas mövzulardan biri Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı tədbirlər olacaq. Ali Məclisin bununla bağlı xüsusi iclası keçiriləcək. Yubiley münasibəti ilə digər önəmli tədbirlərin təşkil edilməsi də nəzərdə tutulur.

Qeyd edilib ki, bu sessiyada qanun layihələri müzakirə edilməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatı dinləniləcək. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) illik hesabatı da dinləniləcək. Bu sessiyada Ali Məclis Azərbaycan Respublikası Konstitusiyası ilə və Ali Məclisin Daxili Nizamnaməsində müəyyən edilmiş qaydada ölkə parlamentində qanunvericilik təşəbbüsü ilə, xüsusilə büdcə qanunvericiliyinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı çıxış edəcək.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi; hesablayıcı komissiyasının yaradılması; intizam komissiyasının yaradılması.

Deputat Elman Cəfərli çıxış edərək "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Prezident sərəncamlarının önəmini vurğulayıb. O, muxtar respublika əhalisini növbədənkənar prezident seçkilərində fəal iştiraka səsləyib.

İclasda "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında" qərar layihələri müzakirə edildikdən sonra qəbul edilib.

Qəbul olunmuş qərarlarla deputatlardan Əmir Babayev, Günel Vəliyeva, İsa Məmmədov, Turan Məmmədli və Ehtibar İsmayılov Hesablayıcı komissiyanın, Vüsalə Əliyeva, Ehtimad Məmmədov, Hüseyn Niftəliyev, Aidə Allahverdiyeva və Tofiq Babayev isə İntizam komissiyasının üzvləri seçiliblər.

***XQ***

# İstiqlal liderinin məfkurə irsi



**AMEA-nın Naxçıvan Bölməsində "Məhəmməd Əmin Rəsulzadə ictimai xadim və ədəbiyyatşünas kimi" mövzusunda elmi konfrans keçirilib.**

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, yanvarın 31-də 140 illiyi tamam olan görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin bizə miras qalan ictimai və ədəbi irsi də çox zəngindir. Odur ki, Azərbaycan Prezidentinin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamı onun həyatının həm ictimai-siyasi xadim, həm də ədəbiyyatşünas, yazıçı, publisist kimi daha dərindən araşdırılmasına rəvac verəcək.

Konfransda bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Məhəmməd Əmin Rəsulzadə və mətbuat", Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev "Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi fəaliyyəti" və Naxçıvan Bölməsi Aparatının Beynəlxalq əlaqələr şöbəsinin aparıcı mütəxəssisi Mehriban Sultanova "Məhəmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsəri" adlı məruzələr ediblər. M.Ə.Rəsulzadənin həyatı haqqında geniş məlumat verilib, onun fəaliyyətinin əsas mərhələləri ətraflı şərh olunub. "Şərqi-rus", "İran-nou", "İrşad", "Təkamül", "İqbal", "Açıq söz", "Yeni Kafkasya" kimi qəzet və məcmuələrdə dərc olunan çoxsaylı məqalələrinin mahiyyəti, ideya-məzmun xüsusiyyətləri təhlil edilib. Vurğulanıb ki, M.Ə.Rəsulzadə məqalə, memuar və başqa janrlarda yazdığı publisistik əsərləri vasitəsilə ideya və düşüncələrini ustalıqla xalqa çatdırmağı bacarmışdır. Gənclərdə milli hisslər formalaşdırmaq amalı ilə başladığı siyasi mübarizlik həyatının 1908–1913-cü illəri əhatə edən İran və Türkiyə dövrü M.Ə.Rəsulzadənin inqilabçı demokrat kimi yetişməsində müstəsna rolu olmuşdur. Gənc Məhəmməd Əmin türkçülük ideyalarının gələcək ideoloqlarından biri kimi püxtələşmişdir.

Məruzələrdə onun dövlət xadimi kimi Azərbaycan xalqı qarşısında xidmətləri, Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyəti, qəbul olunan mühüm tarixi qərarlar, yerinə yetirilən işlər, tarixi torpaqlarımız olan Borçalı və Qarabağla bağlı fikirləri diqqətə çatdırılıb.

Həmçinin M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərində əksini tapan fikirlər siyasi, tarixi və fəlsəfi baxımdan təhlilə cəlb olunub, əsərin ədəbi-mədəni fikir tariximizdəki roluna nəzər yetirilib. Şərq-Qərb mədəniyyətləri kontekstində Azərbaycanın ümumiləşmiş bədii obrazı olan Səyavuşun dilindən ifadə olunan fikirlər, əsərin ideyası əhatəli şərh edilib.

***XQ***

# Prezident seçkiləri Azərbaycanın beynəlxalq nüfuzunu daha da artıracaq

## 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb



**Məzahir Pənahovun sədrliyi ilə fevralın 1-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın 2024-cü il 26 yanvar tarixli iclasının protokolu təsdiq olunub.

Sonra fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki məntəqələrində veb-kameraların quraşdırılması məsələsinə baxılıb. Aparılan geniş müzakirələr zamanı ölkəmizdə keçirilən seçkilərdə 2008-ci ildən etibarən müvəffəqiyyətlə tətbiq olunan veb-kamera təcrübəsinin seçkilərin izlənilməsinə qatılmış çoxsaylı aşkarlıq institutları, yerli və beynəlxalq müşahidəçilər, media nümayəndələri, eləcə də peşəkar seçki mütəxəssisləri tərəfindən mütərəqqi nailiyyət kimi yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb. Veb-kameralardan qarşıdan gələn seçkilərdə də istifadə edilməsinin səsvermə günü şəffaflığın daha böyük miqyasda təmin olunmasına mühüm töhfə verəcəyinə əminlik bildirilib.

İclasda, həmçinin vurğulanıb ki, fevralın 7-də keçiriləcək prezident seçkilərində veb-kameraların tətbiqi layihəsi Mərkəzi Seçki Komissiyasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə sıx əməkdaşlığı şəraitində reallaşdırılıb.

Komissiya prezident seçkiləri ilə əlaqədar seçki günü səsvermə məntəqələrində proseslərin əvvəldən axıradək, birbaşa və arasıkəsilmədən izlənilməsi məqsədilə, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün zəruri olan texniki və digər şərtlər çərçivəsində 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılmasına qərar verib.

Beynəlxalq müşahidə missiyaları və xarici təşkilat təmsilçiləri, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media nümayəndələrinin iştirakı ilə keçirilən iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib, cari məsələlərə baxılıb.

***XQ***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində müşahidə üçün veb-kamera quraşdırılan seçki məntəqələrinin siyahısı

*(119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsi)*

| Seçki dairəsinin sıra sayı və adı | Veb-kamera quraşdırılan seçki məntəqələrinin sıra sayı |
|---|---|
| 1 – Şərur – Sədərək | 12, 15, 17, 21, 36 |
| 2 – Şərur – Kəngərli | 1, 4, 5, 6, 7, 43, 49 |
| 3 – Babək – Şahbuz – Kəngərli | 1, 2, 3, 20, 23, 37, 40 |
| 4 – Naxçıvan şəhər | 10, 12, 15, 17 |
| 5 – Babək – Naxçıvan – Culfa | 20, 29, 33, 34, 38 |
| 6 – Ordubad – Culfa | 1, 2, 3, 4, 6, 44, 55 |
| 7 – Səbail | 2, 9, 10, 11, 13, 16, 17, 19, 20, 24, 26, 31, 37 |
| 8 – Binəqədi I | 3, 4, 7, 8, 18, 19, 26, 30, 32, 35 |
| 9 – Binəqədi II | 6, 8, 10, 14, 17, 18, 20, 25, 32, 34 |
| 10 – Binəqədi III | 3, 5, 13, 16, 21, 32, 37 |
| 11 – Binəqədi – Qaradağ | 14, 26, 28, 30, 32, 35, 36, 37, 39, 41 |
| 12 – Xəzər I | 1, 7, 16, 19, 21, 27, 34 |
| 13 – Xəzər II | 4, 5, 9, 15 |
| 14 – Xəzər – Pirallahı | 1, 3, 7, 14, 19, 26, 32, 36, 37 |
| 15 – Yasamal I | 3, 4, 9, 11, 16, 17, 18, 22, 30, 33 |
| 16 – Yasamal II | 1, 16, 17, 18, 20, 23, 24, 25, 31, 32 |
| 17 – Yasamal III | 1, 2, 3, 5, 8, 12, 26, 27, 37, 38 |
| 18 – Nərimanov – Nizami – Binəqədi | 2, 3, 6, 11, 15, 18, 19, 20, 21, 29 |
| 19 – Nərimanov I | 2, 6, 7, 9, 13, 16, 20, 24, 26, 28, 36 |
| 20 – Nərimanov II | 1, 4, 5, 7, 8, 16, 21, 25, 26, 33 |
| 21 – Nəsimi – Binəqədi | 1, 4, 5, 6, 8, 10, 11, 15, 16, 18, 27, 28 |
| 22 – Nəsimi – Yasamal | 2, 5, 13, 14, 15, 17, 20, 34, 37 |
| 23 – Nəsimi – Səbail | 2, 11, 12, 13, 15, 17, 26, 27, 29, 32, 35, 37 |
| 24 – Nizami I | 3, 7, 9, 11, 14, 22, 27, 30, 31, 34 |
| 25 – Nizami II | 2, 6, 10, 12, 14, 18, 20, 26, 27, 30 |
| 26 – Sabunçu I | 6, 8, 13, 17, 23, 25, 29, 32 |
| 27 – Sabunçu II | 2, 4, 22, 24, 26, 27, 33, 34 |
| 28 – Sabunçu III | 2, 5, 7, 12, 19, 22, 27 |
| 29 – Sabunçu IV | 2, 3, 14, 22, 25, 26, 27 |
| 30 – Suraxanı I | 3, 6, 9, 13, 15, 16, 24, 37 |
| 31 – Suraxanı II | 4, 6, 8, 12, 19, 22, 27, 34, 38, 39 |
| 32 – Suraxanı III | 1, 4, 13, 15, 17, 18, 20, 36, 38, 39, 42 |
| 33 – Xətai I | 4, 11, 12, 14, 22, 23, 26, 28, 30, 37 |
| 34 – Xətai II | 2, 7, 9, 13, 15, 18, 22, 24, 28, 33 |
| 35 – Xətai III | 2, 4, 5, 7, 9, 12, 13, 15, 17, 22, 40 |
| 36 – Xətai – Suraxanı | 1, 6, 10, 12, 14, 15, 21, 23, 30, 37 |
| 37 – Qaradağ | 5, 7, 20, 28, 30, 32, 34 |
| 38 – Gəncə I | 2, 5, 9, 13, 15, 16, 19, 21, 22, 24, 29, 30, 33 |
| 39 – Gəncə II | 6, 8, 9, 12, 14, 15, 18, 20, 25, 28, 32 |
| 40 – Gəncə III | 2, 3, 5, 8, 13, 15, 16, 20, 23, 32 |
| 41 – Gəncə – Samux – Goranboy | 6, 10, 12, 14, 17, 19, 38, 39 |
| 42 – Sumqayıt I | 7, 9, 18, 27, 32, 35, 41 |
| 43 – Sumqayıt II | 2, 6, 9, 15, 20, 22, 29, 30, 36 |
| 44 – Sumqayıt III | 4, 9, 14, 18, 21, 34, 35, 36 |
| 45 – Sumqayıt IV | 3, 7, 18, 30, 36, 37 |
| 46 – Sumqayıt V | 8, 10, 24, 28, 29 |
| 47 – Sumqayıt – Abşeron – Qaradağ | 1, 2, 24, 26, 34, 35, 36 |
| 48 – Abşeron I | 2, 4, 5, 9, 13 |
| 49 – Abşeron II | 2, 10, 11, 14, 15, 18 |
| 50 – Abşeron III | 1, 9, 13 |
| 51 – Şirvan | 9, 12, 15, 17, 19, 20, 26, 29, 30, 32, 34 |
| 52 – Yevlax | 2, 4, 6, 8, 10, 14, 16, 18, 20, 22, 24, 30, 32, 34, 35 |
| 53 – Yevlax – Mingəçevir | 6, 10, 21, 25, 30, 46, 49 |
| 54 – Mingəçevir | 4, 5, 9, 12, 15, 17, 19, 22, 23, 24, 25, 28 |
| 55 – Siyəzən – Quba – Xızı | 1, 2, 3, 4, 8, 69 |
| 56 – Şabran – Xaçmaz | 1, 2, 3, 4, 7 |
| 57 – Xaçmaz şəhər | 1, 2, 6, 8, 9, 10, 12, 13, 14, 16, 47, 48 |
| 58 – Xaçmaz kənd | 2, 4, 7, 8, 9, 16, 20, 32, 33, 46 |
| 59 – Quba | 5, 16, 22, 28, 31, 32, 33, 35, 36, 37, 63 |
| 60 – Quba – Qusar | 13, 15, 20, 29, 34, 36, 39, 42, 43 |
| 61 – Qusar | 1, 7, 8, 18, 27, 33, 38, 46, 58, 60 |
| 62 – Kürdəmir | 1, 2, 3, 4, 5, 6, 7, 8, 12, 18 |
| 63 – Hacıqabul – Kürdəmir | 1, 2, 3, 4, 5, 10, 11, 12 |
| 64 – Salyan | 1, 8, 10, 21, 23, 43 |
| 65 – Salyan – Biləsuvar – Neftçala | 4, 5, 6, 9, 30, 32, 37, 40, 42 |
| 66 – Saatlı | 4, 5, 8, 19, 20, 35, 37 |
| 67 – Sabirabad | 4, 11, 12, 23 |
| 68 – Sabirabad – Şirvan | 1, 2, 4, 10, 35, 51, 56 |
| 69 – Biləsuvar | 1, 2, 3, 4, 5, 7, 9, 10, 21, 34 |
| 70 – Neftçala | 3, 11, 12, 17, 35 |
| 71 – Cəlilabad şəhər | 1, 3, 4, 5, 8, 9, 11, 13, 19, 23, 24, 37, 43, 53 |
| 72 – Cəlilabad kənd | 2, 3, 8, 13, 38 |
| 73 – Masallı – Cəlilabad | 1, 2, 3, 5, 6, 7, 9, 10, 13, 21, 28, 39, 43 |
| 74 – Masallı | 15, 22, 44, 49 |
| 75 – Yardımlı – Masallı | 1, 2, 39, 45, 66 |
| 76 – Lənkəran – Masallı | 1, 15, 18, 27, 39, 41, 43 |
| 77 – Lənkəran şəhər | 3, 4, 5, 7, 8, 11, 15, 16, 19, 24, 30, 31, 34 |
| 78 – Lənkəran kənd | 2, 33, 39, 42, 44 |
| 79 – Astara | 1, 2, 3, 4, 6, 8, 20, 22, 26, 35, 36 |
| 80 – Lerik – Astara | 1, 2, 3, 20, 74, 113, 123 |
| 81 – İmişli | 2, 3, 8, 10, 11, 42 |
| 82 – İmişli – Saatlı | 1, 3, 8, 37 |
| 83 – Beyləqan | 3, 6, 15, 18, 41, 56, 58 |
| 84 – Füzuli | 13, 18, 19, 33, 36, 37, 40 |
| 85 – Füzuli – Ağcabədi | 39, 41, 51 |
| 86 – Ağcabədi | 2, 3, 7, 8, 11, 13, 27, 47 |
| 87 – Qobustan – Şamaxı – İsmayıllı | 1, 27, 29 |
| 88 – Şamaxı | 1, 3, 4, 5, 6, 9, 10, 18, 32, 47, 51 |
| 89 – İsmayıllı | 1, 2, 4, 23, 26, 38 |
| 90 – Ağsu | 1, 3, 5, 6, 7, 8, 9, 32, 33 |
| 91 – Göyçay | 7, 18, 29, 32, 36 |
| 92 – Göyçay – Ağdaş | 6, 7, 8, 13, 15, 20, 21, 33, 34, 37, 39, 40 |
| 93 – Ağdaş | 2, 4, 5, 9, 10, 20, 22, 26, 28, 35 |
| 94 – Ucar | 3, 4, 5, 6, 7, 12, 15 ,17, 37, 44 |
| 95 – Zərdab – Kürdəmir – Ucar | 1, 2, 4, 7, 17, 19, 25, 43, 53, 54 |
| 96 – Goranboy | 1, 2, 4, 35, 37, 45, 47, 55 |
| 97 – Tərtər – Naftalan – Goranboy | 1, 3, 4, 5, 7, 8, 15, 38, 50, 53, 54 |
| 98 – Bərdə – Tərtər | 5, 22, 42, 47, 50 |
| 99 – Bərdə | 1, 2, 3, 4, 7, 8, 10, 13, 14, 31, 33 |
| 100 – Göygöl – Daşkəsən – Kəlbəcər | 1, 2, 3, 6, 7, 12, 16, 30, 41, 52, 53, 54, 55 |
| 101 – Samux – Şəmkir | 1, 2, 5, 6, 9, 10, 12, 15, 16 |
| 102 – Şəmkir şəhər | 1, 3, 4, 5, 6, 7, 8, 9, 11, 12, 14, 23, 38, 39, 45, 48 |
| 103 – Şəmkir kənd | 6, 15, 18, 23, 39 |
| 104 – Gədəbəy | 18, 20, 25, 34, 35, 36, 38, 45, 51 |
| 105 – Tovuz – Gədəbəy | 2, 5, 12, 17, 27, 38, 42, 43 |
| 106 – Tovuz | 1, 2, 3, 5, 11, 13, 14, 21, 25, 29, 31, 33 |
| 107 – Tovuz – Qazax – Ağstafa | 2 |
| 108 – Ağstafa | 1, 2, 3, 4, 8, 21, 39, 40 |
| 109 – Qazax | 1, 2, 4, 6, 7, 9, 10, 11, 29, 31 |
| 110 – Balakən | 1, 2, 4, 5, 15, 21, 22, 28 |
| 111 – Zaqatala – Balakən | 1, 2, 5, 6, 7, 8, 9, 11, 39, 45 |
| 112 – Zaqatala | 1, 5, 11, 29, 35 |
| 113 – Qax–Şəki | 1, 2, 4, 5, 9, 17, 23, 57, 60, 61 |
| 114 – Şəki şəhər | 1, 2, 4, 7, 8, 9, 11, 12, 13, 15, 16, 18, 19, 20, 23, 27, 29, 37 |
| 115 – Şəki kənd | 1, 4, 6, 23, 26, 29, 31, 36, 46 |
| 116 – Qəbələ | 2, 3, 4, 5, 7, 9, 17, 22, 23 |
| 117 – Oğuz – Qəbələ – Şəki | 21, 25, 31, 32, 33, 34, 51, 54 |
| 118 – Ağdam şəhər | 1, 52 |
| 119 – Ağdam kənd | 21, 35 |

## “Seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu"

**Baş Prokurorluqdan verilən məlumata görə, prokurorluq işçiləri üçün “Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu” mövzusunda keçirilən seminarda seçkidə şikayətlər üzrə prokurorluq orqanlarına müraciətedilmə halları və qaydası izah edilib.**




Seminarda mühazirəçi kimi iştirak edən Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin prokuroru Pərvanə Bayramova dinləyicilərə seçki hüququnun konstitusion əsasları, seçki sisteminin sosial-siyasi mahiyyətini izah edib.

Eyni zamanda, seçki mübahisələrinin həll olunması üsulları, vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayətlər üzrə müvafiq prokurorluq orqanlarına müraciət edilmə halları və qaydası, eləcə də seçki subyektlərinin toxunulmazlıq və təhlükəsizlik məsələləri barədə ətraflı məlumat verilib.

***XQ***

## Seçki bülletenləri Naxçıvana çatdırılıb

**Fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanması prosesi başa çatıb.**

Seçki bülletenləri Naxçıvan Muxtar Respublikasındakı seçki dairələri, işğaldan azad olunmuş ərazilərdəki seçki məntəqələrinin aid olduğu seçki dairələri, həmçinin respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ölkənin digər bütün seçki dairələrinə təhvil verilib. Bununla da proses tam yekunlaşdırılıb.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilməlidir.

Xatırladaq ki, yanvarın 24-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və 6 milyon 524 min 203 seçki bülleteni çap olunub.

***XQ***

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 26 yanvar tarixli iclas protokolunun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 26 yanvar tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki məntəqələrində veb-kameraların quraşdırılması barədə

### *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 40.1-ci maddəsinə görə seçki komissiyalarının fəaliyyəti seçicilər üçün şəffaf olmalıdır.

Səsvermənin gedişinin əvvəldən axıradək fasiləsiz olaraq internet vasitəsilə real vaxt rejimində internet istifadəçiləri tərəfindən müşahidə edilməsi, seçicilərə səsvermə üçün zəruri şərait yaradılması, seçicilər səs verdikdən sonra seçki bülletenlərinin seçki qutusuna salınması, eyni zamanda məntəqə seçki komissiyalarının üzvləri tərəfindən seçki sənədləri ilə işin aparılması, səslərin hesablanması, səsvermənin nəticələrinin müəyyənləşdirilərək rəsmiləşdirilməsi proseslərinin izlənilməsi, beləliklə, aşkarlığın və şəffaflığın daha geniş miqyasda təmin edilməsi məqsədilə bütün digər vasitələrlə yanaşı, 2008-ci ildən etibarən ölkədə keçirilən seçki və referendumlarda 500 seçki məntəqəsində, sonradan isə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır. Ölkəmizdə seçkilərin gedişini izləmiş çoxsaylı yerli və beynəlxalq subyektlər, habelə seçki mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmiş bu mütərəqqi təcrübəni öyrənməklə bir sıra xarici dövlətlər də öz seçki praktikalarında oxşar səpkili layihələrin tətbiqi ilə bağlı addımlar atmışlar.

Seçki günü ictimaiyyətin səsvermənin gedişini veb-kameralar vasitəsilə izləməsi yolu ilə də aşkarlığın təmin edilməsi və bu prosesin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) özündə ümumi qaydaları ehtiva edən “Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsi Qaydaları”nı işləyib hazırlayaraq qəbul etmişdir.

Yuxarıda qeyd edilənləri, həmçinin seçki günü proseslərində şəffaflığın daha da artırılmasına bilavasitə xidmət göstərən bu uğurlu təcrübəni nəzərə alaraq, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində də səsvermə prosesinin veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün zəruri olan texniki və digər şərtlər çərçivəsində respublika üzrə 119 seçki dairəsi üzrə 1000 (bir min) seçki məntəqəsində veb-kameralar quraşdırılmalı və həmin seçki məntəqələrinin siyahısı dərc olunmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.16-cı, 28.2-ci, 28.4-cü, 40.1-ci və 110-cu maddələrinə, Mərkəzi Seçki Komissiyasının “Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsi Qaydaları”nın 1.1-ci və 2.2-ci bəndlərinə uyğun olaraq **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermə günü seçki məntəqələrində səsvermə prosesinin, səsvermənin yekunlarının müəyyənləşdirilməsinin və səsvermənin nəticələri haqqında protokolun doldurulmasının əvvəldən axıradək fasiləsiz izlənilməsi məqsədilə 119 seçki dairəsi üzrə 1000 (bir min) seçki məntəqəsində veb-kamera quraşdırılsın.

**2.** Veb-kameraların quraşdırılması üçün zəruri olan texniki və digər şərtlərin təmin olunması ilə əlaqədar müvafiq tədbirlər görülərək başa çatdırılsın.

**3.** Veb-kamera quraşdırılmış seçki məntəqələrinin siyahısı dərc olunsun (siyahı əlavə edilir).

**4.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Surxay Yusif oğlu İsmayıl 16 saylı Yasamal ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

# Azərbaycan malları xarici bazarları fəth edir

## *2023-cü ildə qeyri-neft sektorunda ixrac 3,3 milyard dollara yüksəlib*

**Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.**




Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın yanvar sayına əsasən, yuxarıda vurğulanan tədbirlər nəticəsində 2023-cü il ərzində Azərbaycanın ümumi ixracı 33,9 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 928 milyon dollara bərabər olub. Elektrik enerjisinin ixracı 3,3 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3 faiz, qara metallardan məmulatların ixracı 13,3 faiz, meyvə-tərəvəz ixracı isə 8,7 faiz artıb.

Hesabat ilində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (402,5 milyon dollar) birinci olub. Qızıl (162,8 milyon dollar) ikinci, pomidor (tomat) (162 milyon dollar) isə üçüncü yerdə qeydə alınıb. Belə yüksək göstəricilər 2023-cü ilin dekabrında da əldə edilib. Məsələn, həmin ay qeyri-neft ixracı 3,8 faiz artaraq 314,3 milyon dollara çatıb. Yeyinti məhsulları üzrə ixrac 0,9 faiz artımla 106,6 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 5,4 faiz artımla 207,7 milyon dollar təşkil edib. Bu dövrdə qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (110,3 milyon dollar) birinciliyə yüksəlib. Türkiyə (55,1 milyon dollar) ikinci və Gürcüstan (32,6 milyon dollar) üçüncü yerdə qeydə alınıb. Həmin müddətdə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (35,8 milyon dollar) birinci, elektrik enerjisi (23,2 milyon dollar) ikinci və pomidor (tomat) (21,3 milyon dollar) üçüncü olub.

Yeri gəlmişkən, keçən il Rusiya Federasiyasına 1,1 milyard dollar, Türkiyəyə 783,9 milyon dollar, Gürcüstana 332,5 milyon dollar, İsveçrə Konfederasiyasına 175,3 milyon dollar, Qazaxıstana isə 95 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. "İxrac icmalı"nda bu ilin yanvar ayı ərzində "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən qeyri-neft ixracının dəyəri isə 11,5 milyon dollara yüksəlib.

İcmalda qeyri-neft sektoru üzrə 2023-cü ilin yanvar–dekabr aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi də diqqətə çatdırılıb. Belə ki, qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda Elvin Şirinov, Sahibə Muradova, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycandakı Nümayəndəliyi, "MKT İstehsalat Kommersiya", "Best Logistik", "My Fruit", "STP Global Cable", "P-Aqro" və "Mors Trading" məhdud məsuliyyətləri cəmiyyətləri yer alıblar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edib. Daha sonrakı yerlərdə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "SOCAR Polymer", "Azəralüminium", "Azərpambıq Aqrar Sənaye Kompleksi", "Azəripək" məhdud məsuliyyətli cəmiyyətləri, "AzerGold", "Azərbaycan Hava Yolları", həmçinin "Azərbaycan Dəmir Yolları" qapalı səhmdar cəmiyyətləri və Naxçıvan MR Dövlət Energetika Xidməti təmsil olunublar.

Hesabat ilində Kosmik Agentliyinin ("Azərkosmos") də ixrac fəaliyyəti diqqət çəkib. Bu qurum tərəfindən sözügedən dövrdə dünyanın 48 ölkəsinə 19,8 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2023-cü ilin dekabr ayında isə qurum dünyanın 45 ölkəsinə 1,8 milyon dollar dəyərində xidmət ixracı həyata keçirib.

Hesabat ili ərzində peyk telekommunikasiya xidmətləri ixracının ilk beşliyində isə 5,8 milyon dollar ilə Birləşmiş Krallıq, 4,1 milyon dollar ilə Lüksemburq, 1,6 milyon dollar ilə BƏƏ, 1 milyon dollar ilə Almaniya və 724,9 min dolları ilə Nigeriya qərarlaşıb.

Ötən il ixracın həyata keçirilməsində önəmli rol oynayan "Azexport.az" portalının fəaliyyəti istiqamətində də müəyyən layihələr gerçəkləşdirilib. İİTKM-də ötən ilin hesabatına dair keçirilən mətbuat konfransında bu barədə ətraflı bəhs edilib. Qurumun icraçı direktoru, professor Vüsal Qasımlının sözlərinə görə, hesabat dövründə bu portal vasitəsilə 56 sərbəst satış sertifikatı təqdim olunub. Bununla da sertifikatların ümumi sayı 689-a çatdırılıb. Cari il isə "Azexport" vasitəsilə ölkədaxili məhsul-çatdırma xidməti istifadəyə verilib. Eləcə də, "Azexport"un xətti ilə ilk dəfə ABŞ-a məhsul ixrac edilib. Portalın daha bir yeniliyi isə "Metaverse" platformasında 10 şirkət və yerli media qurumları üçün virtual stend və konfrans zalının quraşdırılması olub.

İİTKM-də hesabat konfransında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən 2023-cü ildə, ümumilikdə, 5 ölkəyə – İsveçrə, Rusiya, Türkiyə, Gürcüstan və İtaliyaya 243 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilib. İxrac edilən məhsullar isə əsasən, qiymətli metallar, süd və qənnadı məhsulları, polad boru və pambıq mahlıcı olub.

***Vaqif BAYRAMOV***
***XQ***

# Ölkəmizin AYİB-lə əməkdaşlığı genişlənir

## Avropa bankı 189 layihəyə 3 milyard 672 milyon avro yatırıb

**Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə əməkdaşlıq imkanları və bankın maliyyə dəstəyi ilə həyata keçirilən layihələr genişmiqyaslıdır. Maliyyə qurumunun indiyədək respublikamıza 189 layihə çərçivəsində 3 milyard 672 milyon avro həcmində investisiya yatırması, ümumi investisiyaların 26 faizinin özəl sektorun payına düşməsi də bunun bariz təsdiqidir.**




AYİB-in Azərbaycandakı aktiv portfelinin 90 faizini (820 milyon avro) dayanıqlı infrastruktur yatırımları, 7 faizini (64 milyon avro) sənaye, ticarət və aqrobiznes investisiyaları, 3 faizini (27 milyon avro) isə maliyyə institutlarına yatırımlar təşkil edir.

AYİB-in respublikamıza belə ciddi maraq göstərməsi bir sıra amillərlə əlaqədardır. Bu, ilk növbədə, respublikamızın əlverişli coğrafi məkanda yerləşməsi, eləcə də tranzit yüklərin daşınması üçün müasir infrastruktura malik olması ilə bağlıdır. Bu cür əlverişli şərait səbəbindən mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycanla əməkdaşlıq etməyə calışan beynəlxalq maliyyə qurumlarının və dünya ölkələrinin sayı da ilbəil artır. AYİB-in respublikamızla yükdaşımalar sahəsində sıx əməkdaşlıq qurmasını da məhz bu məqam daha çox şərtləndirir.

Qeyd edək ki, AYİB 1991-ci ildən fəaliyyətə başlayıb. Ötən müddət ərzində əsasən, keçmiş sosialist ölkələri və Mərkəzi Asiya dövlətlərinə bazar iqtisadiyyatına keçid məqsədilə kredit və texniki yardım üçün kredit, həmçinin ianələr ayırıb.

Azərbaycan 1992-ci ildən mərkəzi ofisi Böyük Britaniyada yerləşən bu maliyyə qurumunun üzvüdür. Beynəlxalq maliyyə institutunun layihələrinin 50 faizi enerji sahəsini əhatə edir. Bankın səhm fondunda Azərbaycan Dövlət Neft Fondunun 100 milyon dollarlıq kapitalı saxlanılır.

***XQ***



# Çindən gələn 2-ci qatar Bakı Limanına çatdı

**Çinin Sian şəhərindən yola çıxan növbəti blok qatar fevralın 1-də Bakı Limanına çatıb. Bu barədə Bakı Dəniz Ticarəti Limanından məlumat verilib.**

Bildirilib ki, 55 ədəd 40 futluq konteynerdən ibarət olan blok qatar Qazaxıstanın Aktau limanından "Sunkar" fider gəmisi (konteynerdaşıyan) vasitəsilə Bakı Limanına çatdırılıb. Hazırda yüklərin limanda operativ formada boşaldılaraq vaqonlara yüklənməsi əməliyyatı icra edilir və prosesin yaxın saatlarda yekunlaşdırılması nəzərdə tutulur.

Xatırladaq ki, Azərbaycandan tranzit keçidi nəzərdə tutulan bu blok qatarda minik avtomobilləri, ağır tonnajlı texnikaların hissələri və digər qeyri-qida məhsulları daşınır. Yüklər Gürcüstanın Poti limanına çatdırılacaq.

Ümumilikdə isə, bu il ərzində Çinin təkcə Sian stansiyasından göndəriləcək 100 blok qatarın Bakı Limanından keçərək son təyinat nöqtəsinə göndərilməsi nəzərdə tutulur.

# Gömrük daxilolmaları 6,3 milyard manatı ötüb



**2023-ci il ərzində gömrük xətti ilə büdcə daxilolmaları əvvəlki illə müqayisədə 12 faiz artaraq 6 milyard 337 milyon manata çatıb.**

Dövlət Gömrük Komitəsinin məlumatında daha sonra bildirilir ki, gömrük rüsumları üzrə daxilolmalar 1 milyard 627 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 14,6 çox), əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 4 milyard 443 milyon manat (11 faiz çox), aksizlər üzrə daxilolmalar 224, 3 milyon manat (32,8 faiz çox), yol vergisi üzrə daxilolmalar isə 42,8 milyon manat (31,2 faiz az) təşkil edib.

**XQ**

# "Dəmir İpək yolu"nda daşımalar 5 milyon tona çatdırılacaq

*(əvvəli 1-ci səhifədə)*

Bu fikirləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (QSC) sədrinin müşaviri Arif Ağayev Brüsseldə Avropa İttifaqı – Mərkəzi Asiya Nəqliyyat Əlaqəsi üzrə İnvestorlar Forumunda çıxışı zamanı səsləndirib. "Azərbaycan Dəmir Yolları"nın şəffaf qiymət siyasətinin müəyyən olunması, infrastruktur üzrə məhdudiyyətlərin aradan qaldırılması, yüklərin vaxtında və təhlükəsiz çatdırılması istiqamətində beynəlxalq dəhlizlərin iştirakçıları ilə fəal əməkdaşlıq etdiyini bildirən A.Ağayev deyib ki, Azərbaycan Orta Dəhliz üzrə ən vacib ölkələrdən biridir və nəqliyyat infrastrukturunun inkişafına iri həcmli investisiyalar qoyur. "Orta Dəhlizin iştirakçıları arasında əsas və strateji yüklər üçün məlumat mübadiləsini qurmaq və proqnozlaşdırılmasını təmin etmək məqsədilə Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolları arasında ortamüddətli planlama xidməti qurulub. Bu xidmət dəhliz vasitəsilə daşımaların həcminin artması zamanı qovşaqlar arasında tranzit axınları bərabər paylamağa imkan verir", – deyə o, əlavə edib.

Məlum olduğu kimi, Orta Dəhliz üzrə tranzit yüklərin həcminin artırılması və səmərəli idarə olunması məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yolu qurumları tərəfindən birgə müəssisə yaradılıb. Brüsseldə keçirilən Avropa İttifaqı – Mərkəzi Asiya Nəqliyyat Əlaqəsi üzrə İnvestorlar Forumunda bu barədə məlumat verən Arif Ağayev deyib ki, bundan məqsəd "bir pəncərə" prinsipi üzrə xidmət göstərmək və müştəri məmnunluğunu təmin etməkdir.

A.Ağayev onu da diqqətə çatdırıb ki, Ələt Limanında tranzit yük əməliyyatlarının sürətləndirilməsi və təyinatı üzrə göndərilməsi məqsədilə "Azərbaycan Dəmir Yolları" və "Azərbaycan Xəzər Dəniz Gəmiciliyi" qapalı səhmdar cəmiyyətləri, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tərəfindən birgə əməliyyatların idarə edilməsi xidməti təşkil edilib. Bununla yanaşı, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti ilə koordinasiyalı fəaliyyət nəticəsində Azərbaycan–Gürcüstan marşrutunda qatarların mənzil başına çatıb-qayıtma müddəti xeyli azaldılıb.

Qeyd edək ki, Avropa İttifaqı – Mərkəzi Asiya Nəqliyyat Əlaqəsi üzrə İnvestorların Brüssel Forumu Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunu Avropa ilə Mərkəzi Asiya arasında multimodal, müasir, rəqabətqabiliyyətli, rəqəmsal və daha sürətli marşruta çevirmək, Orta Dəhliz üzrə fəaliyyəti və investisiyaları koordinasiya etməklə regionda nəqliyyat əlaqəsini gücləndirmək məqsədilə keçirilib.




Yeri gəlmişkən, Azərbaycan hökuməti Bakı–Tbilisi–Qars dəmir yolunun Gürcüstandan keçən 183 kilometrlik hissəsinin ötürmə qabiliyyətinin 5 milyon tona qədər artırılmasına, təxminən, 140 milyon dollar vəsait ayırıb. "Azərbaycan Dəmir Yolları" QSC, əsasən, mürəkkəb coğrafi relyefə malik ərazilərdən keçən yolda təmir-bərpa, rekonstruksiya və tikinti işlərini sürətləndirmək və layihənin qısa müddətdə başa çatdırılması üçün yeni podratçılar cəlb edib. Ötən müddətdə dəmir yolunun inşası tamamlanıb, xətlər elektrikləşdirilib. Bununla yanaşı, yol boyu 12 stansiyada elektrik təchizatı, rabitə və işarəvermə qurğularının, stansiya işçiləri üçün inzibatı binaların, müasir köməkçi kommunikasiya işləri başa çatdırılıb.

Xatırladaq ki, 2017-ci ildə istifadəyə verilmiş sözügedən dəmir yolu xəttinin çətin relyefli dağlıq və meşəlik ərazidən keçən Marabda–Kartsaxi sahəsində aparılan təmir-bərpa işləri yol təsərrüfatının sağlamlaşdırılması, onun buraxıcılıq gücünün artırılması və hərəkətin təhlükəzliyi baxımından həyata keçirilən tədbirlərdir. BTQ-nin Gürcüstan hissəsində aparılan genişləndirmə işləri nəticə etibarilə Çin və Orta Asiyadan daha çox yükün qəbul edilərək Avropaya çatdırılmasında mühüm rol oynayacaq. Belə ki, Asiyadan gələn yüklərin Azərbaycan üzərindən biraşırımlı əməliyyatla Avropaya daha sürətli çatdırılması BTQ-ın regional nəqliyyat şəbəkəsindəki əhəmiyyətini daha da önə çıxarır.

Ümumi uzunluğu 826 kilometr təşkil edən BTQ-nin 504 kilometri Azərbaycan ərazisindən keçir. Bu isə sözügedən dəmir yolunun ölkəmizin ən mühüm nəqliyyat infrastrukturu olduğunu deməyə əsas verir. Təsadüfi deyil ki, Pezident İlham Əliyev Bakı–Tbilisi–Qars dəmir yolunu tarixi və strateji əhəmiyyətli layihə kimi dəyərləndirib. Eyni zamanda, layihə Azərbaycan üçün siyasi, iqtisadi və strateji baxımdan da xüsusi əhəmiyyət daşıyır. Hər şeydən əvvəl, ölkəmiz bu marşrut vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş imkanı qazanıb. Belə ki, dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkündür. Azərbaycanın iqtisadi inkişafına mühüm töhfələr verən BTQ, həm də ölkəmizin tranzit imkanlarını xeyli artırıb.

Regionun ən böyük yol infrastrkturlarından sayılan bu nəhəng layihənin maliyyələşdirilməsində ölkəmiz önəmli rol oynayıb. Belə ki, ABŞ və Avropa Birliyi Ermənistan amilinə görə layihəyə qarşı çıxaraq onun maliyyələşdirilməsindən imtina etdikləri üçün Azərbaycan tikintinin maliyyələşdirilməsini öz üzərinə götürüb. Bu məqsədlə qonşu Gürcüstana ildə 1 faiz dərəcəsi ilə 25 il müddətinə 220 milyon dollar kredit ayrılıb. Bütövlükdə isə, BTQ-nin tikintisinin maliyyələşdirilməsinə Azərbaycan Respublikası Dövlət Neft Fondunun xətti ilə indiyədək təqribən 745 milyon dollar vəsait yönəldilib. Türkiyə hökuməti isə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin ölkə ərazisindən keçən hissəsinin inşasına 345 milyon dollar ayırıb.

2017-ci il sentyabrın 7-də Tbilisidən Axalkalakiyə gedən ilk sınaq sərnişin qatarının yola salınması ilə istismarına başlanılan Bakı–Tbilisi–Qars dəmir yolu ilə Asiyadakı məhsulların 15 gün müddətində Avropaya çatdırılması mümkündür. Bütövlükdə isə, polad magistralla növbəti illərdə 3 milyon sərnişin və 17 milyon ton yük daşınması nəzərdə tutulur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi qaydası

**1. Ümumi müddəa**

1.1. Bu Qayda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra – kredit təşkilatları) manatla aldıqları kreditlər üzrə onlara Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu (bundan sonra – Fond) vasitəsilə faiz subsidiyalarının verilməsinə dair tələbləri, müraciət qaydasını, faiz subsidiyası üzrə ödəniş şərtlərini və digər məsələləri tənzimləyir.

1.2. Kreditlər üzrə faizlərin subsidiyalaşdırılması Azərbaycan Respublikasının dövlət büdcəsindən Fonda ayrılmış vəsait hesabına həyata keçirilir.

**2. Faiz subsidiyasının verilməsi şərtləri**

2.1. Faiz subsidiyası Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr (bundan sonra – layihə) üçün Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təsdiqedici sənədi əsasında sahibkarların 2024-cü il yanvarın 1-dən dekabrın 1-dək kredit təşkilatlarından manatla aldıqları kreditlərə verilir.

2.2. Faiz subsidiyası məbləği 1 (bir) milyon manatdan artıq olan kreditlərin illik faiz dərəcəsinin 6 (altı) faiz bəndi həcmində və 72 (yetmiş iki) aydan çox olmayan müddətə verilir. Kreditin illik faiz dərəcəsi 6 (altı) faizdən aşağı olarsa, faiz subsidiyası kreditin illik faiz dərəcəsi həcmində verilir.

2.3. Faiz subsidiyası kredit müqaviləsinin qüvvədə olduğu müddət ərzində hesablanır və 2025-ci il yanvarın 1-dən başlayaraq bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq rüblük əsasda ödənilir.

2.4. Faiz subsidiyası aşağıdakı hallarda verilmir:

2.4.1. layihə bu Qaydanın 2.1-ci bəndində göstərilən məqsədlər üçün həyata keçirilmədikdə;

2.4.2. sahibkar subsidiya üçün müraciət edən kredit təşkilatına aidiyyəti olan şəxs olduqda;

2.4.3. sahibkarın nizamnamə kapitalında dövlətin iştirak payı 50 (əlli) faizdən çox olduqda.

2.5. Kredit xətti istisna olmaqla, balansarxası öhdəliklərə faiz subsidiyası verilmir.

**3. Kreditin və faiz subsidiyasının verilməsi üçün müraciət**

3.1. Sahibkar kredit almaq üçün kredit təşkilatına müraciət edir.

3.2. Kredit təşkilatı müraciət daxil olduğu gündən 10 (on) iş günü müddətində sahibkar barədə məlumatları "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən əldə edir və sahibkarın bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulmuş meyarlara uyğunluğunu yoxlayır, sifariş üzrə maliyyə-kredit təhlili aparır və müvafiq qərar qəbul edir.

3.3. Kredit təşkilatı müsbət qərar verilmiş layihənin maliyyələşdirilməsini həyata keçirir və bu barədə Fonda 2 (iki) iş günü müddətində rəsmi məlumat verir.

3.4. Sahibkar kredit aldıqdan sonra faiz subsidiyası almaq üçün kredit təşkilatına müraciət edir. Kredit təşkilatı sahibkarların aşağıdakı sənədlərini 10 (on) iş günü müddətində Fonda təqdim edir:

3.4.1. sahibkarın müraciətini, o cümlədən məlumatların Fonda ötürülməsinə razılığı;

3.4.2. sahibkarın təsis sənədlərini, VÖEN-ini, hüquqi şəxsin icra orqanın rəhbərinin və ya fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənədi;

3.4.3. kredit müqaviləsinin və ödəniş qrafikinin surətini;

3.4.4. kredit hesabatını;

3.4.5. sahibkarın rekvizitlərinə, alınmış kreditə və tələb olunan subsidiya məbləğinə dair məlumatı;

3.4.6. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən verilmiş və sahibkarın layihə çərçivəsində nəzərdə tutulmuş işləri başa çatdırmasını təsdiq edən arayışı və ya məktubu.

3.5. Fond 5 (beş) iş günü müddətində sahibkara faiz subsidiyasının verilməsi və ya ondan imtina edilməsi barədə müvafiq qərar qəbul edir və kredit təşkilatına təqdim edir.

3.6. Kredit təşkilatı faiz subsidiyasının verilməsi barədə Fondun qərarını 2 (iki) iş günü müddətində sahibkara sifarişli poçt göndərişi vasitəsilə bildirir.

**4. Faiz subsidiyasının ödənilməsi**

4.1. Kredit təşkilatı hər rüb üzrə hesablanmış faizlərə dair hesabatı və faiz subsidiyasının ödənilməsi barədə müraciəti 2025-ci il yanvarın 1-dən etibarən hər rüb başa çatdıqdan sonra növbəti ayın ilk 3 (üç) iş günü müddətində Fonda təqdim edir. Hesabatın formasını Fond müəyyənləşdirir.

4.2. Fond bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş müraciət daxil olduqdan sonra 3 (üç) iş günü müddətində faiz subsidiyasını aşağıdakı məbləğlərdə kredit təşkilatının hesabına köçürür:

4.2.1. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ödənilməli faiz subsidiyası bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının məbləğindən çox olduqda – ödəniş qrafikində göstərilən məbləğdə;

4.2.2. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ödənilməli faiz subsidiyası bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının məbləğindən az və ya ona bərabər olduqda – hesabatda göstərilən məbləğdə.

4.3. Sahibkara krediti üzrə ödənilən faiz subsidiyasının cəmi məbləği bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının cəmi məbləğindən artıq ola bilməz.

4.4. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabatda kredit təşkilatı tərəfindən təhrif olunmuş məlumatların təqdim edilməsi aşkarlandıqda, artıq ödənilmiş faiz subsidiyası kredit təşkilatı tərəfindən Fonda geri qaytarılır.

4.5. Faiz subsidiyası yalnız bu Qaydanın 3.4.5-ci yarımbəndində nəzərdə tutulmuş sənəddə göstərilən faiz dərəcəsinə uyğun (dəbbə pulu nəzərə alınmadan) ödənilir.

**5. Faiz subsidiyasının ödənilməsinin dayandırılması və ləğvi**

5.1. Faiz subsidiyasının ödənilməsinə dair kredit təşkilatının Fonda müraciət tarixinə 1 (bir) iş günü qalanadək sahibkarın həmin kredit təşkilatında olan hesabı üzərində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla sahibkar arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda, həmin borc tam məbləğdə ödənilənədək (öhdəlik yerinə yetirilənədək) faiz subsidiyasının ödənilməsi dayandırılır.

5.2. Bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulmuş hallar aradan qaldırıldıqdan sonra faiz subsidiyasının ödənilməsi bərpa edilir və həmin dövrlər üçün ödənilməli faiz subsidiyası bu Qaydanın 4-cü hissəsi ilə müəyyən edilmiş qaydada kredit təşkilatının hesabına köçürülür.

5.3. Aşağıdakı hallarda sahibkara faiz subsidiyasının ödənilməsi ləğv edilir:

5.3.1. sahibkarın tələbi əsasında kredit təşkilatının Fonda müraciəti olduqda;

5.3.2. iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə məsuliyyətini təsdiqləyən qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

5.3.3. sahibkar fəaliyyətini dayandırdıqda, bu fəaliyyətə xitam verdikdə və ya onun bu fəaliyyətlə məşğul olmaq hüququ qanunla müəyyənləşdirilmiş qaydada ləğv edildikdə;

5.3.4. müqavilə üzrə ödənişlərinin icrası 90 (doxsan) gündən çox gecikən krediti restrukturizasiya olunduqda.

5.4. Bu Qaydanın 5.3.2-ci yarımbəndində nəzərdə tutulmuş hal barədə kredit təşkilatına məlumat daxil olduğu gündən 3 (üç) iş günü müddətində həmin təşkilat Fonda sifarişli poçt göndərişi vasitəsilə məlumat verir.

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri

1. Yerli xammal bazasına (metal filiz, neft, qaz, kimya, tikinti materialları və pambıq sahələri) əsaslanan istehsal layihələri;
2. Bərpa olunan enerji mənbələri hesabına enerji istehsalı layihələri;
3. Tullantıların idarə olunması və təkrar emalı layihələri;
4. Dəniz suyunun duzsuzlaşdırılması layihələri;
5. Özəl sənaye məhəllələrinin yaradılması layihələri;
6. 2023-cü il yanvarın 1-dən sonra investisiya müsabiqələri vasitəsilə özəlləşdirilən qeyri-neft sənayesi müəssisələrinin istehsal layihələri;
7. Azərbaycan Respublikasında istehsalı ilk dəfə təşkil edilən, yerli məhsulların özünü təminetmə səviyyəsini (idxalın əvəzlənməsini) və ya qeyri-neft sektorunun ixrac potensialının artırılmasını təşviq edən iqtisadi fəaliyyət sahələrinin yaradılması istiqamətində həyata keçirilən "Azərbaycanda ilk" ("First in Azerbaijan") layihələri;
8. Hava gəmilərinin istismarı və onlara texniki xidmət göstərilməsi layihələri;
9. Dəmir yolunun hərəkət tərkibinin təmiri və onun ehtiyat hissələrinin istehsalı layihələri;
10. Hərbi təyinatlı məhsulların istehsalı layihələri;
11. Alüminium məhsullarının istehsalı layihələri;
12. Dövlət-özəl tərəfdaşlığı (dövlətin satınalma öhdəliyi ilə özəl sektor tərəfindən həyata keçirilən elektrik enerjisi istehsalı layihələri daxil olmaqla) layihələri;
13. COP29 beynəlxalq tədbiri çərçivəsində qonaqlama layihəsi.

# "Anadolu" agentliyi səfirimizdən müsahibə alıb

**Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov "Anadolu" agentliyinə müsahibəsində 7 fevralda keçiriləcək növbədənkənar prezident seçkiləri barədə açıqlamalar verib. Səfir bildirib ki, Azərbaycandakı növbədənkənar seçkilər ölkə üçün tarixi bir hadisədir.**



Diplomat Azərbaycanın 44 günlük Vətən müharibəsində Ermənistan üzərindəki qələbəsini və 2023-cü ilin sentyabr ayında Qarabağda keçirdiyi lokal antiterror tədbirlərinin nəticələrindən danışıb. O, budəfəki seçkilərin ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində keçiriləcəyini bildirib: "Öz yaşadığı ərazilərdən didərgin salınan məcburi köçkünlər artıq işğaldan azad olunmuş torpaqlara geri qayıdırlar. Azərbaycanın müstəqilliyinin tarixində ilk dəfədir ki, seçkilər Azərbaycan ərazilərinin hamısında baş tutacaq.

Səfir deyib ki, növbədənkənar seçkilər Azərbaycan tarixindən bir dövrün qapanmasının və yeni bir mərhələnin açılmasının rəmzidir.

Rəşad Məmmədov sonda Türkiyədə yaşayan Azərbaycan vətəndaşlarını seçkilərə aktiv olaraq iştiraka və səs verməyə çağırıb.

# Ərəb ölkələrində səsvermə məntəqələri yaradılıb

**Növbədənkənar prezident seçkiləri ilə əlaqədar ərəb ölkələrində məntəqə seçki komissiyaları yaradılıb**

Fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ilə əlaqədar ərəb ölkələrində məntəqə seçki komissiyaları yaradılıb.

Ölkəmizin Dubaydakı baş konsulluğundan bildirilib ki, növbədənkənar prezident seçkiləri ilə əlaqədar Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 16 saylı Yasamal 2-ci seçki dairəsi üzrə 56 saylı məntəqə seçki komissiyası yaradılıb. Baş konsulluq bu şəhərdə yaşayan Azərbaycan vətəndaşlarına xatırladıb ki, onlar seçkilər günü öz sənədlərini (pasport, şəxsiyyət vəsiqəsi) məntəqə seçki komissiyasına təqdim etməlidirlər.

Daha 3 məntəqə seçki komissiyası İordaniyanın paytaxtı Əmmanda, BƏƏ-nin paytaxtı Əbu-Dabidə və Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda Azərbaycanın bu ölkələrdəki səfirliklərinin inzibati binalarında yaradılıb. Diplomatik nümayəndəliklərin müraciətlərində qeyd olunub ki, növbədənkənar prezident seçkiləri ilə əlaqədar Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddəti xarici ezamiyyətdə olan vətəndaşların seçkilərdə iştirakını təmin etmək məqsədilə məntəqə seçki komissiyaları formalaşdırılıb.

*Əliqismət BƏDƏLOV*
**XQ**

# Çexiya COP29-da yüksək səviyyədə təmsil olunacaq



**Fevralın 1-də Milli Məclisin sədri Sahibə Qafarova Çex Respublikası parlamentinin Deputatlar Palatasının sədri Marketa Pekarova Adamovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə dövlətlərarası, parlamentlərarası əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

S.Qafarova Ermənistanın və onun havadarlarının beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmiş hərəkətlərini, Azərbaycana qarşı yalan kampaniyasını pisləyib, AŞPA-da baş verən son proseslərin bu kampaniyanın tərkib hissəsi olduğunu deyib. O, bəzi dövlətlərin və beynəlxalq təşkilatların, xüsusilə AŞPA-nın işğal dövründə keçmiş məcburi köçkünlərimizin hüquqlarının bərpası ilə bağlı danışmadığını, bu gün isə eyni mövqeni Ermənistandan olan azərbaycanlı qaçqınlarla bağlı nümayiş etdirdiklərini deyib.

Marketa Pekarova Adamova diqqətə çatdırıb ki, Çexiya parlamentariləri AŞPA-da Azərbaycanla bağlı sözügedən məsələnin müzakirəsində iştirak etməyib və lehinə səs verməyib. O bildirib ki, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu şübhə doğurmur və Çex Respublikası hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Çexiya bu gün Cənubi Qafqaz regionuna davamlı sülhün və əmin-amanlığın gəlməsi üçün Azərbaycan ilə Ermənistan arasında dialoqun davam etdirilməsinə dəstək göstərir.

Adamova ölkəmizin COP29-a evsahibliyi münasibətilə təbriklərini çatdırıb, Çexiyanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını deyib.

**XQ**

# "Mənim Səsim"in nümayəndələri YAP Mərkəzi Aparatında



**Fevralın 1-də Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident seçkiləri ilə əlaqədar yaradılmış "Mənim Səsim" Seçki Monitorinq Koalisiyasının nümayəndələri ilə görüşüb.**

Koalisiyanın həmtəsisçiləri – "D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyəti" İctimai Birliyinin sədri Novella Cəfəroğlu, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri Səidə Qocamanlı, Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin sədri Səadət Bənənyarlı, həmçinin ekspertlər – sosioloq Əhməd Qəşəmoğlu və politoloq Adəm İsmayıl Bakuvi fevralın 7-də keçiriləcək prezident seçkilərinə ölkəmizdə və beynəlxalq müstəvidə böyük maraq olduğunu diqqətə çatdırıblar.

Seçki kampaniyasının uğurla davam etdiyini söyləyən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, ölkəmizdə seçkilərin azad, şəffaf və demokratik qaydada keçirilməsi üçün bütün şərait mövcuddur.

**XQ**

# Ali Məhkəmə Plenumunun iclası




**Yanvarın 31-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iclası keçirilib. Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, Plenum Ali Məhkəmənin birillik fəaliyyətinə həsr olunub.**

2023-cü ilin ölkəmiz üçün tarixi il olduğunu diqqətə çatdıran sədr qeyd edib ki, ötən il müstəqil Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ölkəmizdə böyük təntənə ilə qeyd edilib və bu münasibətlə Ali Məhkəmə tərəfindən də silsilə tədbirlər həyata keçirilib. 2023-cü il, eyni zamanda, Ali Məhkəmənin yaradılmasının 100 illiyi də təntənəli şəkildə qeyd olunub.

Ali Məhkəmənin icraatında olan işlərə də toxunularaq diqqətə çatdırılıb ki, 2023-cü ildə baxılmış işlər üzrə kollegiyalarda statistik göstəricilər fərqli olub. Belə ki, Mülki kollegiyada 22,4 faiz azalma olsa da, Kommersiya kollegiyasında 36,2 faiz, İnzibati kollegiyada 21 faiz, Cinayət kollegiyasında 5 faiz artım olub.

Daha sonra Ali Məhkəmənin kollegiyalarının ötən ildə görülmüş işlərlə bağlı geniş hesabatları dinlənilib.

Bildirilib ki, 2023-cü il ərzində Mülki kollegiyanın kassasiya icraatında olan 5597 işdən 5246-sı mülki iş, 345-i xarici məhkəmələrin qətnamələrinin Azərbaycan Respublikasında tanınması və icrası ilə bağlı olub. 2023-cü ildə icraat olmuş 5246 mülki işdən 4024 iş mahiyyəti üzrə baxılıb, həmin işlərdən 3080 işlə bağlı məhkəmə aktı dəyişdirilmədən saxlanılıb, 889 iş üzrə məhkəmə aktı ləğv edilib, 15 iş üzrə kassasiya icraatına xitam verilib, 40 iş üzrə məhkəmə aktı dəyişdirilib.

2023-cü il ərzində Cinayət kollegiyanın icraatında olmuş 3391 işdən 2272 işə mahiyyəti üzrə baxılıb. Baxılmış 2272 işdən 1877 iş üzrə məhkəmə aktı qüvvədə saxlanılıb, 209 iş üzrə ləğv edilib, 186 iş üzrə qərar dəyişdirilib.

İnzibati kollegiyanın icraatında olmuş 3756 işdən 2590 işə mahiyyəti üzrə baxılıb. Baxılmış 2590 işdən 2057 iş üzrə məhkəmə aktı qüvvədə saxlanılıb, 479 iş üzrə ləğv edilib, 22 iş üzrə kassasiya icraatına xitam verilib, 12 iş üzrə məhkəmə aktları dəyişdirilib və 20 iş üzrə icraata xitam verilib.

Məruzələr ətrafında çıxış edənlər 2023-cü ildə kollegiyaların fəaliyyətində nəzərəçarpacaq keyfiyyət dəyişikliyi olduğunu qeyd ediblər.

Sonda Plenumda Ali Məhkəmənin 2024-cü ilə dair İş Planı təsdiq edilib.

**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 53** **Bakı şəhəri, 29 yanvar 2024-cü il**

***"Dəmiryol keçidlərinin istismarı Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol keçidlərinin istismarı Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 56** **Bakı şəhəri, 30 yanvar 2024-cü il**

***Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 dekabr tarixli 438 nömrəli Qərarı) 1-ci hissəsinə "övladlığa" sözündən əvvəl "himayədar valideynlərə (himayədar ailəyə) və" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 58** **Bakı şəhəri, 31 yanvar 2024-cü il**

***"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 174 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 174 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (IV kitab), maddə 680) 2-ci hissəsində "2024-cü il 1 yanvar" sözləri "2025-ci il 1 yanvar" sözləri ilə əvəz edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 61** **Bakı şəhəri, 31 yanvar 2024-cü il**

***Nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləğinin, utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləğinin və birdəfəlik ödənişin həcminin təsdiq edilməsi haqqında***

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanunun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 iyul tarixli 2253 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin 1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Nəqliyyat vasitələrinin utilizasiya haqqının məbləği" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin məbləği və birdəfəlik ödənişin həcmi" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** Bu Qərara 1 nömrəli əlavənin 2-ci hissəsində müəyyən edilən utilizasiya haqları traktorlar, həmçinin meşə və kənd təsərrüfatında istifadə edilən, siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 14 avqust tarixli 187 nömrəli Qərarı ilə müəyyən edilən mexaniki nəqliyyat vasitələri üçün 2024-cü il fevralın 1-dən 2 (iki) il müddətinə 50 (əlli) faiz həcmdə tətbiq edilir.

**4.** Bu Qərarın 1-ci və 3-cü hissələri 2024-cü il fevralın 1-dən, 2-ci hissəsi 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**5.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 62** **Bakı şəhəri, 31 yanvar 2024-cü il**

***"Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın təsdiq edilməsi haqqında***

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanunun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 iyul tarixli 2253 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin 2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**3.** Bu Qərar 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 59** **Bakı şəhəri, 31 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 19 210 1" və "2710 19 210 9" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 19 210 1 | reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq | 1 ton üçün 80,0 manat (31.12.2024-cü il tarixinədək – 1,0 manat) |
| 2710 19 210 9 | reaktiv mühərriklər üçün digər yanacaq | 1 ton üçün 80,0 manat (31.12.2024-cü il tarixinədək – 1,0 manat) |

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 60** **Bakı şəhəri, 31 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə "2710 19 210 1" və "2710 19 210 9" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 210 1 | – – – – – – – –<br>reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq | – | 15 (31.12.2024-cü il tarixinədək – 0%) |
| 2710 19 210 9 | – – – – – – – –<br>digərləri | – | 15 (31.12.2024-cü il tarixinədək – 0%) |

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AMEA – Azərbaycanın elmi yaddaş və intellektual məkanı

## III məqalə

### "Elmi sinerji"nin Azərbaycan nümunəsi

II məqalənin sonuncu müddəaları Azərbaycanda elmin inkişaf perspektivləri ilə dünya miqyasında elmin inkişafı arasında uyğunluq kontekstində AMEA-nı Azərbaycanın elmi yaddaşı və intellektual məkanı kimi necə daha səmərəli fəaliyyət səviyyəsinə yüksəltməyin fəlsəfi-sinergetik anlamı ilə bağlı idi. Buna ümumi halda "sinergetik dərk" deyirik və ona uyğun olaraq söhbət Azərbaycan elmində nəzəri ilə praktiki-tətbiqi aspektlərin "elmi sinerjisi"nin Azərbaycan nümunəsini yaratmaqdan gedir.



Bu məqsədə çatmaq üçün məsələyə iki səviyyədə – dünyada perspektivli elmi tərəqqiyə nail olmağın fəlsəfi-elmi araşdırılması və Azərbaycan təcrübəsini nəzərə almaqla alınan ümumi nəticələrin elmimizə necə səmərəli tətbiq etmənin nəzəri modelinin yaradılması səviyyələrində baxmaq zəruridir.

Araşdırmalar göstərir ki, müasir mərhələdə elmin inkişafı əsasən üç istiqamətdə baş verir:

– Rəsmi elmi strukturların (o cümlədən, akademiyaların) elmi fəaliyyəti;

– universitetlər çərçivəsində aparılan tədqiqatlar;

– müstəqil araşdırmaçıların elmi axtarışları.

Biz birinci istiqamət üzərində ikinci və üçüncü ilə bağlı mövcud fikirləri təhlil edəndən sonra dayanacağıq.

İndi Azərbaycanda universitet tərkibində elmi axtarışların daha səmərəli olması ilə bağlı fikirlər müsbət mənada dəbdədir. Təbii ki, Qərbin və Uzaq Şərqin inkişaf etmiş ölkələrinin universitetlərində yeni nəzəri ideyalar, innovativ ixtiralar, praktiki-tətbiqi potensialı güclü olan araşdırmalar aparılır və ondan böyük səmərə görürlər.

**Birincisi,** elmi axtarışların bu cür institutlaşması əsrlərdir ki, təhsillə vəhdətdə aparılır və bu sahədə Qərbin böyük təcrübəsi mövcuddur. Buna görə də həmin yol yalnız ona oxşar təcrübəsi olan ölkələrdə perspektivli səmərə verə bilər. Burada "perspektivli səmərə" dedikdə uzun müddətli, sistemli və davamlı olaraq elmi fəaliyyət göstərmənin nəzəri və praktiki modelinin mövcudluğu nəzərdə tutulur. Qısa müddətli "elmi sıçrayış"ı bütövlükdə elmi tərəqqi adlandırmaq olmaz.

**İkincisi,** hazırda Qərb fəlsəfi-elmi fikrində mövcud universitet strategiyasının dalana dirəndiyi haqqında nüfuzlu arqumentlər ifadə olunur. Konkret olaraq, Qərbdə, Rusiyada və Çində universitetin Humbolt idealına "yenidən baxmaq" (İ.T.Kasavin) ehtiyacından bəhs edən ciddi araşdırmalar meydana gəlmişdir. Bu barədə ilk yazanlar sırasında tanınmış filosof və elmin metodoloqu Pol Feyerabend də vardır. Son 4 ildə bu mövzuda çox sayda sanballı araşdırmalar Avropada, Amerika qitəsində, Uzaq Şərqdə aparılmışdır.

İ.T.Kasavin yazır ki, müasir texnoelmin və elmi tədrisin (təhsilin) yaradıcı şəxsiyyətə təsiri onun "habitus"unu yaradır (P.Burdyenin istifadə etdiyi termindir), yəni "şəxsiyyətin inkişafının əsas istiqaməti"ni müəyyən edir. Bu bağlılıqda Humboltun universitet strategiyasına yenidən baxılmalıdır. Çünki həmin strategiya Orta əsrlər Avropasında əsas olaraq kilsəyə, orduya və türmələrə qarşı "fiksasiya" kimi yaradılmışdır.

Konkret desək, universitetlər daxili tələbata görə insan yetişdirməyi deyil, kilsə, ordu və türməyə əks olan şəxsiyyətlər yetişdirməyə üstünlük verdilər. Universitetlərin təhsil strategiyası institutsional (öz missiyasına uyğun) maraqları təmin etməyə yönəlməmişdir. Bu, doğrudan da, özünüyaradan insan yetişdirmək strategiyası deyildir, sadəcə, "elə olma" məntiqinə dayanan fiksasiyadır (Kasavin, İ.T., 2022, s. 23).

Mövzunun elmi detallarına getsək, mətni mürəkkəbləşdirəcəyik. Ona görə də gəlinən ümumi qənaəti qısa vurğulayaq: müasir mərhələdə dünyanın ən aparıcı universitetləri belə strategiyada "tədqiqat dalanı"na dirəndiyini etiraf edirlər. Özü də başlıca olaraq müasir mərhələdə uğurlu ola biləcək İnsan yetişdirmək aspektində situasiyanı yeniləşdirməyin zəruriliyini vurğulayırlar. İnsan yaradıcılığı nədir? Elmi yaradıcılığın sosial-mədəni kontekstini tərəqqi naminə necə səmərəli etmək olar? Və sair kimi suallara intensiv cavab axtarırlar.

Onda məntiqi nəticə alınır: Azərbaycan kimi dünyanın aparıcı elmi kəsiminə inteqrasiya etmək kursunu seçmiş müstəqil dövlətlərdə universitetlərin strategiyası necə müəyyən edilməlidir? Bizim nümunə (mayak) kimi baxdığımız universitet strategiyası haqqında Qərbdə "dalana dirənmişik" fikri varsa, biz də ən yaxşı halda həmin dalana qədər getməyəcəyikmi? Əminəm, kor-koranə qəbul edib, "universitet yaxşı, akademik elmi fəaliyyət ondan zəif" kimi məntiqlə davransaq, gözümüzü həmin "yaradıcılıq və elmi" dalanında açacağıq.

Müasir mərhələdə elmin inkişafının ikinci xəttini müstəqil araşdırmaçılar təşkil edirlər. Bu tendensiyanın Qərbdə təcrübəsi toplanmışdır. Rusiyada xeyli zəifdir. Araşdırmalar, əsasən, "prekariat" anlayışı ilə bağlı aparılır. "Prekarlar" daimi iş yeri olmayan, müqavilə əsasında sərbəst fəaliyyət göstərən yaradıcı insanlar qrupuna aiddir. Bir zamanalar Qay Standinq onları "təhlükəli sinif" adlandırmışdı. Çünki prekarlar, adətən, rəsmi orqanlarla, dövlətin elm siyasəti ilə razılaşmırlar. Hətta Rusiyada onların bir etiraz dalğası meydana gəlmişdi.

Yuxarıda vurğulanan məqamlarla bağlı Azərbaycan kontekstində sualı belə qoyuruq: Azərbaycanda müstəqil araşdırma, o cümlədən, prekarlıq təcrübəsi mövcuddurmu? Məncə, mövcud deyildir. Onda hazırda elmin bu ölkədə müstəqil yaradıcı insanlar vasitəsilə inkişafı haqqında danışmağın heç yeri yoxdur.

**Üçüncüsü,** sinergetikada mürəkkəb və qeyri-xətti sistemlərlə bağlı belə bir teorem vardır: ən yaxşı ideyaları belə zamanında sistemə tətbq etməyəndə onun özünütəşkili baş vermir, əksinə, sistem deqradasiyaya uğrayır. Deməli, strateji olaraq da hansı ideyanı nə zaman və necə topluma tətbiq etməyin dəqiq təhlili aparılmalı və proqnozlar verilməlidir.

Bütün faktlardan hansı nəticə alınır? Azərbaycanda böyük təcrübəsi və nəticələri olan akademik tədqiqatlar istiqaməti aparıcı olmalıdır. Bunun üçün AMEA-nın fəaliyyətinin stratejisi istiqaməti ulu öndər Heydər Əliyevin müəyyən etdiyi nəzəri və konseptual çərçivədə müstəqil dövlətçiliyə və elmin daxili potensialı üzərində inkişaf etdirilməsinin sintezi ilə sıx bağlı olmalıdır.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin fəaliyyətinin mərkəzi punktunu məhz bu məqam təşkil edir. Bununla praktiki olaraq Azərbaycanda həm elmi tədqiqatların müasir tələblər səviyyəsində aparılmasını təşkil etmək, həm gələcək üçün universitetlərin yeni strategiyasını müəyyən etməyin nəzəri, metodoloji və praktiki-proqram əsaslarını hazırlamaq, həm də müstəqil dövlətçiliyə xidmət əsasında güclü dövlətçiliklə güclü intellektual cəmiyyətin formalaşması arasında harmoniya yaratmaq istiqamətlərində dövlətin yanında olmağı təmin etmək mümkündür.

AMEA bu vəzifənin öhdəsindən gəlmək üçün kifayət qədər təcrübəyə, intellektual potensiala və indiki rəhbərliyin yaradıcı idarəetmə potensialına malikdir.

Tədqiqatda fənlərarası (interdisiplinar) yanaşmadan nəzəri ilə yanaşı, praktiki olaraq istifadə etmənin həm fərdi-yaradıcı, həm də akademik-institusional təcrübəsi mövcuddur. Bu təcrübə 80 ildir ki, fəaliyyət göstərən AMEA-nın institutlarının vahid sistem tərkibində qarşılıqlı əlaqədə işləməsindən toplanmışdır! Bu təcrübə Ulu öndərin müəyyən etdiyi mənada AMEA-nın milli sərvət kimi faydalı olmasını təmin etməkdədir.

Bundan başqa, elmin "Azərbaycan sinerjisi" intellektual sərvətin milli sərvətə çevrilməsi sayəsində reallaşmaqdadır. Bu məsələ birbaşa müstəqil güclü dövlətin və güclü vətəndaş cəmiyyətinin formalaşması strategiyası ilə bağlıdır. Çünki müasir inkişaf etmiş dövlətlərdə milli intellektual potensial ölkənin və cəmiyyətin xeyrinə istifadə əsasında tərəqqi etməkdədir. Hər hansı alim məşhur ola bilər, lakin onun məşhurluğu milli sərvət funksiyasını yerinə yetirməyə bilər. Yaradıcı adam mütləq yaşadığı ölkənin, mənsub olduğu cəmiyyətin, vətəndaşı olduğu dövlətin fəziləti və rifahı üçün yaratmalıdır. Onun elmi nəticələrinin cəmiyyətə faydası olmayacaqsa, milli sərvət adlandırılmaz. Milli sərvət olmadan isə, ümumiyyətlə, nə cəmiyyət, nə də dövlət var ola bilməz.

Beləliklə, AMEA-nın Azərbaycan elminin inkişafındakı yeri və rolu yalnız bu təşkilatın elmi yaddaş olması ilə məhdudlaşmır. AMEA həm də intellektual məkan kimi, daim dinamik funksiya yerinə yetirir. Bu iki faktorun kəsişməsinin yaradıcı sahəsində AMEA həm özünü, həm də ölkənin elmi mühitini formalaşdırır Təşkilatın hazırkı rəhbərliyi bu məsələyə Azərbaycanda müstəqil dövlətçiliyin inkişafına maksimum xidmət fəlsəfəsi ilə yanaşır. Bu isə o deməkdir ki, uğurlar getdikcə daha çox olacaqdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Lənkəran – “Türk Dünyasının Gənclik Paytaxtı”




**Cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin yüksək həyat və fəaliyyət şəraiti hər bir ölkənin maddi və mənəvi tərəqqisinə bilavasitə təsir göstərir. Bu baxımdan Lənkəran nümunəvi şəhər sayılır.**

Məlum olduğu kimi, Lənkəran bu il üçün TDT tərəfindən “Türk Dünyasının Gənclik Paytaxtı” elan olunub. Şübhə yoxdur ki, qazandığı yeni titul dövlətin gənclər siyasətinin uğurla həyata keçirildiyi “Cənub mirvarisi”ni dünyaya daha yaxından tanıdacaq.

Lənkəran Şəhər İcra Hakimiyyətinin daimi diqqət və qayğısı ilə gənclərin milli-mənəvi dəyərlər əsasında vətənpərvərlik ruhunda tərbiyə olunması, yaradıcılq potensialının aşkarlanması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Bundan ruhlanan gənclər də tərəddüd etmədən hər zaman öz təşəbbüskarlıqları, yaradıcılıq əzmləri ilə seçilməyə çalışırlar. Onların daha çox cəmləşdiyi Gənclər Mərkəzi istedadlı gənclərin üzə çıxarılmasına layiqincə xidmət edir. Bütün lazımı avadanlıqla təchiz olunmuş bu mərkəzdə xarici dil və komputer kursları, müxtəlif dərnəklər uğurla fəaliyyət göstərir. Müasir konfrans zalına, 3D formatlı kino kluba malik mərkəzdə gənclər üçün müxtəlif mövzularda dəyirmi masalar və film nümayişləri təşkil edilir. Burada gənclər kafesi, 30 yerlik qapalı, 150 yerlik açıq zal mövcuddur. Hazırda ölkənin ən böyük gənclər evlərindən biri kimi fəaliyyət göstərən bu mərkəz ən qaynar məkanlardan biri kimi tanınır.

Ötən il oktyabrın 3-də Lənkəran şəhəri Akademik Zərifə Əliyeva küçəsində yaşayış binalarının ərazisində “Sağlam məhəllə” adlı idman zonasının açılışı gənclərin idmana marağının artırılması və sağlam nəslin yetişdirilməsi istiqamətində atılmış mühüm addımlardandır. İctimai fəal oğlan və qızlar Lənkəranda fəaliyyət göstərən tələbə gənclər təşkilatlarında, tələbə elmi cəmiyyətlərində, yaradıcı birliklərdə fəaliyyətlərini uğurla davam etdirirlər.

Vətənin müdafiəsində, ərazi bütövlüyümüzün təmin olunmasında lənkəranlı gənclər xüsusilə fərqləniblər. Vətən müharibəsində canından, qanından keçməyə hazır olan neçə-neçə lənkəranlı gənc şəhidlik zirvəsinə yüksəlib, qazi olub, fəxri adlara, orden və medallara layiq görülüb. Onların nümunəsi böyüyən nəslin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır.

Gələcəyə inamla boylanan Lənkəranda Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran–Astara Regional nümayəndəliyi, “Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosasiyası, “İntellekt” Sərhədsiz Gənc Maarifçilər, “Ekoturizm” ictimai birlikləri və “Cənub könüllüləri” qrupu bir-birindən maraqlı tədbirləri ilə, sanki, yarışa giriblər. Bu təşkilatlarda yaradılan imkanlardan yüzlərlə gənc özünün fərdi inkişafı üçün səmərəli istifadə edir.

Respublikanın nüfuzlu ali təhsil ocaqlarından olan Lənkəran Dövlət Universitetində (LDU) ölkənin ayrı-ayrı bölgələrindən olan 7889, LDU nəzdində olan Sosial və Aqrar-Texnoloji Kollecdə 1100, Tibb Kollecində 537, Lənkəran Dövlət Peşə Təhsili Mərkəzində 400 gənc müxtəlif ixtisaslar üzrə təhsil alırlar. Lənkəran–Astara Regional Gənclər və İdman İdarəsi şəhər icra hakimiyyətinin böyük dəstəyi ilə “2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın müvafiq bəndlərinin icrası istiqamətində bir sıra kütləvi tədbirlər keçirib. Belə ki, Lənkəran şəhəri Heydər Əliyev Parkında regionda yaşayan xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud, əlil, yeniyetmə və gənclər üçün Beynəlxalq Əlillər Günü münasibəti ilə keçirilmiş xeyriyyə sərgisində onların sosial müdafiəsini gücləndirmək məqsədi ilə əl işləri nümayiş etdirilib və satışı təşkil olunub.

Bundan başqa, rayonda yeniyetmə və gənclərin əqli və intellektual səviyyəsinin inkişafı, o cümlədən elmi potensialının gücləndirilməsi istiqamətində müxtəlif intellektual tədbirlər, bilik yarışları, müsabiqələr keçirilib, könüllülər günü qeyd edilib. Ötən müddət ərzində rayonda bilik bacarığı ilə seçilən gənclər arasında “Breyn-Rinq”, “Xəmsə”, “Nə, harada, nə zaman?” kimi yarışlarda xeyli qabiliyyətli gənc qüvvəsini sınayıb. Rayonda “Azərbaycan regionlarında gənc təlimçilərin bacarıqlarının inkişaf etdirilməsi”, “Uğurumu danışıram”, “Gənclik parlaq gələcəyimizdir”, “Gəncə Doğru” və digər tədbirlərdə yeniyetmə və gənclərin şəxsiyyətinin harmonik, hərtərəfli inkişafına şərait yaradılıb. “Gənc səyyah”, “Zəfər turu”, “Biz gəlirik”, “Layihəmi reallaşdırıram” kimi təlimlər və layihələr onlar üçün aktual olan məsələlərin həllini tapmağa imkan yaradılıb. Rayonun kənd təsərrüfatı sahəsində çalışan gəncləri üçün “Gənc sahibkar və fermerlər” adlı görüşlər təşkil olunub, gənclərin iqtisadi biliklərinin artırılması, sahibkarlıq fəaliyyətinə dəstək verilməsi, iqtisadi sahədə bacarıqlarının stimullaşdırılması məsələləri müzakirə olunub.

Gənclər arasında cinayətkarlığın, narkomaniyanın və digər zərərli vərdişlərə olan meyllərin aradan qaldırılması, habelə dini radikalizmlə mübarizə ilə bağlı maarifləndirici işin gücləndirilməsi də daimi diqqət mərkəzindədir.

Hazırda Türk Dünyasının “Gənclər Paytaxtı” olan Lənkəranda Gənclər və İdman Nazirliyi və şəhər icra hakimiyyəti ilə birlikdə bu il üçün əhatəli tədbirlər planı hazırlanaraq həyata keçirilməyə başlayıb. İnanırıq ki, bu məramla atılan addımlar yadda qalan olacaq və Lənkəranın şöhrəti daha da artacaq.

***Ə.ƏLİYEV***
***XQ***

# Şirvan gənclərinin vətəndaş fəallığı

**Dağlıq Şirvan Regional Gənclər və İdman İdarəsi əhatə etdiyi bölgələrdə dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi üçün ciddi səylər göstərir. Əlamətdar günlər və tarixi hadisələrin ildönümləri, idman yarışları və gənclər arasında müxtəlif maraqlı müsabiqələrin keçirilirməsi ənənə halını alıb.**



Hər il 2 Fevral Azərbaycan Gəncləri Günü ilə bağlı təşkil olunan tədbirlər də bu qəbildəndir. Bu bayramda keçilən yola nəzər salınır, uğurlar xatırlanır, fəal gənclər mükafatlandırılırlar. Bütün bunlar sabahımızın sahibləri olan gənclərin inkişafına stimul verir, onları daha parlaq nailiyyətlərə ruhlandırır.

İdman İdarəsinin təşkilatçılığı ilə region gənclərinin cəmiyyət həyatına fəal inteqrasiyası, sosiallaşması məqsədilə Qobustan rayonunda “Region Gənclərinin Festivalı” keçirilib. Cari ildə Bakı şəhərində keçirilən “GəncFest”, “Həmrəylik” kimi festivallarda region gənclərinin iştirakı təmin edilib və onlar layiqli şəkildə təmsil olunublar.




Ötən il region gənclərinin ictimai həyatda fəallığı daha da yüksək olub. “Heydər Əliyev İli” çərçivəsində keçirilən esse, rəsm, bədii qiraət müsabiqələri, gənclər üçün əyləncəli proqramlar, həmçinin soyqırımı və faciə qurbanlarının xatirəsinin yad edilməsi məqsədilə təşkil olunan fləşmoblar, sənədli filmlərin nümayişi yaddaqalan tədbirlərdəndir. İl ərzində “Şahin” hərbi-idman oyunları üzrə respublika birinciliyində İsmayıllı rayon Diyallı kənd tam orta məktəbi komandasının qalibiyyət əldə edərək 1-ci yeri qazanması rayon gənclərinin ən uğurlu nəticələrindən hesab edilə bilər.

Dağlıq Şirvan Regional Gənclər və İdman İdarəsi ...

Gənclər arasında maarifləndirmə və təbliğat işləri mütəmadi olaraq aparılıb, asudə vaxtın səmərəli təşkili məqsədilə günərzi yay düşərgələri təşkil edilib. Həmçinin ağacəkmə aksiyası çərçivəsində sağlam həyat tərzinin təbliği işinə də xüsusi diqqət ayrılıb.

Region gəncləri idman sahəsində də sanballı uğurları ilə fərqləniblər. Belə ki, 2023-cü ildə Belarusda keçirilən II MDB oyunlarında İsmayıllı cüdoçusu Ayxan Mirzəzadə və qobustanlı gənc ağırlıqqaldıran Dadaş Dadaşbəyli qızıl medallar qazanıblar. Qeyd edək ki, idman yarışlarında tək oğlanların deyil, qızların da fərəhli nailiyyətləri var. İsmayıllı rayonunun gənc atletləri Selcan Qarayeva və Mələk Hüseynli ötən il ağır atletika üzrə gənclər arasında ölkə birinciliyində fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Dağlıq Şirvan Regional Gənclər və İdman İdarəsinin kollektivi öz bayramını belə gözəl nailiyyətlərlə qarşılayıb. Ötən illərdə əldə edilən uğurlar məhz idarənin yüksək təşkilatçılığının və öz vətənpərvərlikləri ilə seçilən bölgə gənclərinin əzmkarlığının nəticəsidir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
**İsmayıllı**

# “İlin gənc alimi”

**Gənclər Günü ərəfəsində AMEA-nın Ədəbiyyat İnstitutunun doktorantı Günel Əhmədova “İlin gənc alimi” mükafatı ilə təltif olunub.**



İnstitutdan XQ-yə bildirilib ki, Günel Əhmədova bu mükafata AMEA-nın ictimai və elmi həyatında fəal iştirakına görə layiq görülüb. Günel Əhmədova 1 kitab və 30-dan çox elmi məqalənin, konfrans materialının müəllifidir. O, ölkəmizdə və xaricdə bir çox elmi konfranslarda iştirak edib, nüfuzlu elmi jurnallarda məqalələri çap olunub. Doktorantın elmi rəhbəri filologiya elmləri doktoru, professor Tahirə Məmməddir. Günel Əhmədova “Azərbaycan ədəbiyyatında felyeton janrının təşəkkülü və tipologiyası” adlı dissertasiya işi üzərində işləyir və yekunlaşdırmaq üzrədir.

***XQ***

**Qayıdış marafonu**

# Həsrətin sonu

## Şəbnəm Cəbrayıl Laçına qayıtmaq üçün Ağcabədidə məktəb direktorluğundan imtina edib

**Azərbaycan gənclərinin vətənpərvərliyi, yurd sevgisi, bəlkə də dünyaya bir nümunədir. Laçınlı Mehriban ana ilə qızları Şəbnəm və Nata, kürəkəni Orxanın torpaqlarımız işğaldan azad olunandan sonra hələ tam lazımi şəraiti olmayan doğma yurda dönmələri bu baxımdan qürurverici faktdır.**



Şəbnəm Uğurlu-Cəbrayılın uğur hekayəsi xüsusilə maraqlıdır. Gənc ingilis dili müəllimi Ağcabədinin Taxtakörpü qəsəbəsində məktəb direktoru idi. Amma bu vəzifəsindən imtina edərək Laçına, ata-baba ocağına qayıdış arzusunu reallaşdırıb. Hazırda oradakı yeganə təhsil ocağı olan, Prezident İlham Əliyevin açılışını etdiyi 2 nömrəli tam orta məktəbdə dərs deyir, özü də tədris işləri üzrə direktor müavinidir.

Ailə Laçın şəhərində, əvvəllər Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyevin adını daşıyan, indi isə “Zəfər” adı verilən küçədə əsaslı təmir edilmiş 176 nömrəli evdə yaşayır. Bura Şəbnəmgilin 31 il həsrətini çəkdikləri doğma ünvandır.

Mehriban ana hər gün eyvandan məktəbə tərəf baxıb kövrəlir. Bunun səbəbi var. Heyfsilənir ki, anası, ömür-gün dostu, digər didərginlər bu fərəhi yaşamadılar, köçkünlük əzablarına dözməyib dünyalarını dəyişdilər. Yurda qayıtmaq bir ona, bir də qardaşı Qəzənfərlə balalarına nəsib oldu.

Uzun illər Şəbnəm xanımın nənəsi Şəfiqə Baxışova və babası Tofiq Əhmədov məhz bu məktəbin müəlimləri olub, el-oba içində böyük hörmət qazanıblar. Mehriban ana özü də, uşaqları da burada oxuyublar. Bu gün rəhmətlik Şəfiqə və Tofiq müəllimin ruhları şaddır, çünki ailə estafeti uğurla davam edir, Şəbnəm müəllim doğma məktəbdə çalışır.

Qayıdış uğurunu tale töhfəsi sayan Şəbnəmin həyat yoldaşı Orxan Cəbrayıl həkimdir. Peşə karyerasını Laçında davam etdirir, mərkəzi xəstəxananın direktorudur. Övladları Dəniz və Günəş də təzə məktəbdə dərsə gedirlər. Biri 5-ci, digəri isə 2-ci sinifdə oxuyur. Uşaqların xalası Nata da onlarla birlikdədir. Bura köçənə qədər Bakıda Nəsimi Rayon Mərkəzi Kitabxana Sisteminin 4 saylı filialında çalışıb. Səbrlə Laçında da kitabxana açılmasını gözləyir ki, işini davam etdirsin. Bir sözlə, bütün ailə azad dağlar qoynunda yaşamaqdan zövq almaqdadır.

Bu yaxınlarda Laçına ezamiyyətə gedəndə onlarla yenidən görüşmək, Şəbnəmin timsalında yurda qayıdışlarına həsr etdiyim şeiri oxumaq ustədim. Amma öyrəndim ki, bir-iki günlüyə Ağcabədiyə gediblər. Sağlıq olsun, gələn dəfə görüşərik, – dedim.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Zəhranın uğur zirvəsi

## *O, qəbul imtahanlarında ölkə birincisi olub*

**Özünə inamı və yorulmadan çalışmağı əsas uğur düsturu hesab edən gənclərimizdən biri də Zəhra Hüseynovadır.**



Ölkəmizdə inkişafı dövlət tərəfindən prioritet istiqamət kimi müəyyənləşdirilmiş sahələrdən biri də təhsil sistemidir. Fərəhli haldır ki, bu diqqətdən ruhlanan gənclərimizin əksəriyyəti bilik marafonlarında öz zəkaları ilə fərqlənməkdə qərarlı olur.

Həyatda ilk böyük uğurlara imza atanların arasında bölgə məktəblilərinin də sayı durmadan artır. Bunu Saatlı rayonundakı Ə.Şüküroğlu adına Varxan kənd tam orta məktəbin məzunu Zəhra Hüseynovanın timsalında daha aydın görmək olar. Zəhra ötən tədris ili üzrə qəbul imtahanlarında respublika birincisi olmaqla seçilməyi bacarmış gəncdir.

Hələ kiçik yaşlarından oxumaq, hər şeyi öyrənib bilmək həvəsi onu yaşıdlarından fərqləndirirdi. Məhz daim seçilmək istəyi onun uğurlarını şərtləndirən əsas amil idi. Buna görə də müəllimlərinin qayğısı, valideynlərinin dəstəyi, ən əsası, özünəinam hissi Zəhranın arzularını reallaşdırdı, uğurlarını sıraladı. Respublika Fənn Olimpiadalarında iştirakı məktəbli qızın böyük hədəflərinə yelkən açdı, ona əlavə motivasiya verdi. Zəhra fənn olimpiadalarında əvvəlcə Azərbaycan dili və ədəbiyyatı fənni üzrə gümüş, növbəti ildə isə tarix fənni üzrə bürünc medallar qazanaraq adını Saatlı rayon təhsil sisteminin “Şərəf lövhəsi”nə yazdırdı. Bilik yarışlarında, eləcə də rayonun ictimai həyatında fəallığı yerli sakinlərin ona olan sevgisini daha da artırdı, Zəhranı rayonda tanış simaya çevirdi.

Onun qazandığı uğurlar diqqətdən kənarda qalmayıb. Zəhra Hüseynova Saatlı Rayon İcra Hakimiyyəti, Mil-Muğan Regional Təhsil İdarəsi tərəfindən dəfələrlə fəxri fərmanlara layiq görülüb. Elm və Təhsil Nazirliyi də istedalı şagirdə öz “təşəkkürünü” bildirib – sinəsinə “qızıl nişan” taxıb.

Çətin abituriyentlik dövrü onu əsl sınağa çəkdi. Yüksək nəticə əldə etmək istəyi bacardığı qədər sosial məşğuliyyətlərdən uzaq durmasına səbəb oldu. Günün 8-10 saatını, hətta son aylarda 12 saatını yorulmadan çalışdı. 2023-cü il 8-9 iyul tarixlərində keçirilmiş qəbul imtahalarının yekunu isə onu bütün respublikaya tanıtdı. Zəhra Hüseynova 675,2 balla respublikada III qrup üzrə ən yüksək nəticənin sahibi oldu. Və arzusunu reallaşdıraraq Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasını (tədris ingilis dilində) seçdi. Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin 2023–2024-cü tədris ili üzrə qəbul imtahanlarında 670-dən yuxarı bal toplayan tələbələrlə görüşü zamanı Zəhra Hüseynovanın da uğurunu dəyərləndirməsi onun istedadının növbəti təsdiqi idi.

Şübhəsiz, istedadlı şagird və tələbələrin qazandıqları uğurları, ümumilikdə, dövlətin təhsilin inkişafına göstərdiyi qayğının nəticəsi kimi dəyərləndirilir. Ulu öndərin müəyyənləşdirdiyi təhsil siyasəti bu gün ölkəmizdə uğurla davam etdirilir. Bilikli, istedadlı gənclərə göstərilən diqqət və qayğının növbəti bariz nümunələrindən biri də Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələr üçün Prezident təqaüdünün təsis edilməsidir. 2001-ci ildən verilməyə başlayan bu təqaüd çoxları üçün bir xəyal olsa da, Zəhra bunu da bacarıb. O, indiyədək Saatlı rayonundan bu böyük şərəfə layiq görülmüş 3-cü gəncdir. O, bütün tələbəlik illəri ərzində “Prezident təqaüdçüsü” adını şərəflə daşıyacağına söz verib. Qısa müddət ərzində universitetdə çalışqanlığı və fəallığı ilə müəllimlərin sevimlisinə çevrilib.

Zəhra Hüseynovanın arzusu seçdiyi ixtisas üzrə xaricdə magistr təhsili almaq və daha sonra Vətəninə qayıdıb haqqın, ədalətin keşiyində dayanmaqdır... O haqqın, ədalətin ki, 30 ildən artıq müddətdə beynəlxalq arenada Azərbaycanla bir “addımladı”. O haqqın, ədalətin ki, Azərbaycan dövləti tərəfindən 44 gün ərzində dünyaya təqdim edildi və bu gün dövlətimizi irəliyə aparır.

***Mahir ALLAHYARLI,***
***“Dönüş” qəzetinin redaktoru***
**Saatlı**

Beynəlxalq həyat

# Buyurun, bu da "bəxtəvər ölkələr"in sonu...

## *Varlılar aləminin yoxsullaşması daha ağrılıdır*

**2024-cü il dünyanın bir çox "bəxtəvər ölkələri" üçün yaxşı heç nə vəd etmir. Məsələn, bu ilin ABŞ vətəndaşları üçün qiymətlərin kəskin artımı, israillilər üçün "kassa kəsirləri", hətta çox qənaətli dolanan Finlandiya vətəndaşları üçün yoxsulluğun yaxınlaşdığı il kimi tarixə düşəcəyi gözlənilir. Dünyaya nümunə kimi bəh-bəhlə təqdim olunan Böyük Britaniyada belə 14 milyon insan kommunal xərclərin artması səbəbindən yoxsul vəziyyətə düşüb.**

Yeni ilin ilk günlərindən başlayaraq, dünya bazarları iqtisadi inkişaf tempinin tədricən yavaşımasına hazırlaşmağa başlayıblar. Əsas problemlərdən biri kimi istehlakçıların tələbatının kəskin zəifləməsidir. Ötən ilin səhvlərini təhlil edən analitiklər qeyd edirlər ki, bu, ilk növbədə, COVID-19-dan sonra Çinin dayandırılan istehsal bumunun yenidən bərpa ediləcəyinə olan ümidlərlə bağlıdır, amma bu ümidlər özünü doğrultmayacaq.

"Reuters" agentliyinin yazdığına görə, "Goldman Sachs", "Morgan Stanley", "UBS" və "Barclays" da daxil olmaqla, nəhəng banklar 2024-cü ildə yüksək bank faiz dərəcələrini, neftin daha da bahalaşacağını proqnozlaşdırırlar. ÇXR isə iqtisadi artımın zəifləyəcəyini bildirir. Agentlik, həmçinin bir il əvvəl bəzi bankların Birləşmiş Ştatlarda tənəzzül proqnozlaşdırdıqlarını da qeyd edir. İndi



təhlükə elə də böyük deyil, lakin "Conference Board"un hələ ötən ilin noyabrında keçirdiyi sorğuda Amerika istehlakçılarının təxminən üçdə ikisi əvvəlki kimi hesab edirdi ki, 2024-cü ildə "çox" və ya "daha çox" tənəzzül ehtimal olunur.

Qlobal iqtisadiyyatda liderliyə gəlincə, Britaniya İqtisadiyyat və Biznes Araşdırmaları Mərkəzinin hesabatında Çinin yalnız 2037-ci ildə ABŞ-ı keçə biləcəyi qeyd olunur. "Bürünc" uğrunda da kəskin mübarizə gedir və analitiklər proqnozlaşdırırlar ki, iki il ərzində dünyanın üç ən böyük iqtisadiyyatı arasında Almaniyanın yerini Yaponiya tutacaq, amma o da öz növbəsində 2035-ci ilə qədər Hindistan tərəfindən sıxışdırılıb mövqeyini ona verməyə məcbur olacaq.

Əlbəttə, ABŞ iqtisadiyyatı bundan sonra hələ on ildən çox planetin qalan iqtisadiyyatlarını qabaqlasa da, bu ölkədə də işlər yaxşı getmir. COVID-19 pandemiyasına qarşı mübarizə zamanı, az qala, helikopterlərdən səpilən pullar kimi, asan pula tez alışan amerikalılar, dövlət yardım proqramları başa çatdıqdan sonra, indi sürətlə artan qiymətlərlə yaşamağı öyrənməlidirlər. Çünki əhalinin ən yoxsul təbəqələrinin əmanətlərinin azaldığı bir vaxtda, ərzaq qiymətləri artmaqda davam edir.

Yaşayış dəyəri ilə bağlı problem o dərəcədə kəskinləşib ki, son on ildə ilk dəfə olaraq ölkədə ərzaq təhlükəsizliyinin səviyyəsi aşağı düşüb. "Bloomberg" agentliyinin icmalında deyildiyi kimi, "rəqəmlər heyrətamizdir": Siyahıyaalma Bürosunun ev təsərrüfatları arasında keçirdikləri son sorğulara görə, ABŞ-da təxminən 28 milyon yaşlı insan yalnız "bəzən və ya nadir hallarda" yemək üçün kifayət qədər qida tapa bilir Bu, ümumi əhalinin 12,5 faizini təşkil edir.

"Bloomberg" yazır: "Mənzərə çox həyəcanlıdır. İnflyasiya hər bir insanın pul kisəsini "talayıb". İmkanlı adamlar COVID-19 böhranı vaxtı geniş rövnəqlənən xeyriyyəçilikdən sonra daha az pul ianə edirlər. Pandemiya dövründə maddi yardım üzrə tədbirlərin dayandırılması, görünür, onsuz da kövrək olan sosial müdafiə sistemində yeni boşluqlar yaradıb".

Daha bir həyəcanlı tendensiya isə demoqrafik yoxsullaşmadır. Söhbət ondan gedir ki, ölkənin ümumi zənginləri içərisində 70 və daha yaşlı amerikalıların payı rekord həddə – 30 faizə çatıb və bu qrup əhalinin ümumi sayının 11 faizini təşkil edir.

ABŞ Federal Ehtiyatlar Sisteminin məlumatına görə, "körpə-bumerlər" nəsli kimi tanınan yaşlı insanlar qrupu 14 trilyon dollardan çox əlavə şəxsi kapital toplayıb. Eyni zamanda, 40-70 yaş arasında olan amerikalılar (insanlar adətən bu yaşda öz gəlirlərinin pik həddinə çatırlar) 2019-cu ilə nisbətən daha az sərvətə sahib olublar.

Təbii ki, ABŞ həmişə sosial təzadlar məkanı olub, lakin əvvəllər yaşayış səviyyəsi orta sabit hesab edilən ölkələrdə də indi ciddi problemlər başlayır. 2023-cü ilin zərbələrindən danışsaq, onlardan ən ağırı İsrailə dəyib. Bu yaxınlarda yerli media "Bituax Leumi"nin (Milli Sığorta İnstitutu) əhalinin, demək olar ki, bütün qruplarında yoxsulluğun dərinləşməsi ilə bağlı hesabat dərc edib. Sənəddə söhbət 2022-ci ilin məlumatlarından – yəni HƏMAS-ın ölkənin cənubuna hücumundan və Qəzza zolağında cavab hərbi əməliyyatından əvvəlki dövrdən gedir. O zaman İsraildə 1,98 milyon yoxsul insan var idi. Bu o deməkdir ki, ölkə vətəndaşlarının beşdə birindən çoxu 2022-ci ildə illik 2892 şekel (təxminən 1351 AZN) gəlirlə yoxsulluq həddinin altında olub. Hesabatda 2023-cü ilin bəzi göstəriciləri də var. Məsələn, İsraildə ev təsərrüfatlarının 31,4 faizi sağlam qida ala bilmir.

Aydındır ki, HƏMAS-la mübarizəyə görə xərclərin kəskin artması səbəbindən 2023-cü il üçün göstəricilər daha pis olacaq. İsrailin Baş naziri Binyamin Netanyahu bu günlərdə davam edən döyüşlərdə qələbə istisna olmaqla, hərbi xərclərin artırılmasını ən böyük problem adlandırıb. "Bloomberg"in məlumatına görə, İsrail bu ilin dövlət büdcəsində müdafiə xərclərini, ən azı, 30 milyard şekel (8,3 milyard dollar) artırmalı olacaq. Netanyahu hökuməti üçün daha həyəcanlı məqam isə vergi gəlirlərinin azalması və istehlakçı tələbinin zəifləməsi səbəbindən hökumətin gəlirlərinin 35 milyard şekel (9,6 milyard dollar) azalmasıdır. Əgər fövqəladə tədbirlər görülməsə, İsrailin büdcə kəsiri ÜDM-in, demək olar ki, 6 faizinə qədər yüksələcək və bu da qanunla müəyyən edilmiş 2,25 faizlik yuxarı həddən xeyli çoxdur.

Hələ ötən ilin oktyabrında, "Dəmir qılınclar" əməliyyatının əvvəlində İsrail Maliyyə Nazirliyi milli valyutanın dəyərinin ilkin proqnozlarını dərc etmişdi. Təxmini hesablamalara görə, HƏMAS-ı məğlub etməyin 200 milyard şekelə (51 milyard dollar, ÜDM-in 10 faizi) başa gələcəyi gözlənilirdi. Bu ssenari "nikbin" hesab edilirdi, çünki böhranın səkkiz aydan bir ilədək davam edəcəyi, Qəzza zolağından kənara yayılmayacağı və orduya çağırılan 350 min ehtiyatda olan hərbçinin tezliklə işə qayıdacağı nəzərdə tuturdu. Amma hərbi əməliyyatların bu müddətə başa çatacağına inanmaq sadəlövhlük olardı.

Uzun illər dünyanın "bəxtəvər ölkəsi" hesab edilən Böyük Britaniyada da bu ada uyğun gələn çox az şey qalıb. Bu günlərdə UNICEF-in mətbuatda yayılan hesabatında uşaq gəlirləri üzrə yoxsulluğun səviyyəsi nisbətən varlı ölkələrlə müqayisə olunub. Uşaq yoxsulluğunun səviyyəsinə görə Avropa İttifaqı və OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkələri arasında Böyük Britaniya 37-ci yerdədir. Son hesabatlara görə, Britaniyada 14,5 milyon insan yoxsulluq içində yaşayır ki, bu da əhalinin 22 faizini təşkil edir. Onlardan da 4,3 milyonu uşaqlardır.

Bütün bunlar heç də dünən başlayan bir proses deyil. "Guardian" qəzetinin icmalçısı Riçard Partinqon hesab edir ki, son iki onillikdə ölkədə yoxsulluğun aradan qaldırılması çox çətin bir problemə çevrilməkdədir. Cozef Rauntri Fondunun məlumatlarına istinad edən müəllif bildirir ki, 2010-cu ildə Mühafizəkarlar Partiyası hakimiyyətə gələndən bu prosesdə xüsusi staqnasiya (durğunluq-red) getməkdədir. Amma milyonlarla insanın maliyyə problemləri hələ 1990-cı illərdən dərinləşməyə başlamışdı.

Fond 2024-cü il üçün Böyük Britaniya Krallığında yoxsulluq həddi ilə bağlı proqnozları açıqlayaraq bildirir ki, 6 milyon insan "yoxsulluq quyusu"ndan çıxmaq üçün öz gəlirlərini minimum iki dəfə artırmalıdır. Fondun təhlilində qeyd edilir ki, 2021–2022-ci illərdə kasıbların 29 faizinin əmək haqları yaşayış minimumdan aşağı olub. Yəni onların gəlirləri evi idarə etmək üçün olan minimum məbləğdən 60 faizdən çox aşağı olub.

Orta səviyyəli və 14 yaşlı iki uşağı olan britaniyalı ailə üçün yaşayış minimumu əslində 21 min 900 funt sterlinq olmalıdır, amma bu, 14 min 600-dən də aşağı olub ki, bu da çox dərin yoxsulluq hesab edilir. İndi isə qiymətlərin kəskin artması və inflyasiyanın sürətlənməsi fonunda vəziyyət daha da ağırlaşıb.

2012–2014 və 2019–2021-ci illərdə krallıqda uşaq yoxsulluğu dərəcələrində faiz dəyişiklikləri də müəyyənləşdirilib. Böyük Britaniya 39 yüksək və yuxarı orta gəlirli ölkələrin siyahısında sonuncu yerdə qərarlaşıb. Burada uşaq yoxsulluğu 20 faiz artıb.

UNICEF-in hesabatında qeyd olunur ki, "əksər uşaqlar üçün bu, o deməkdir ki, onlar kifayət qədər keyfiyyətli qida, geyim, məktəb ləvazimatı və ya ev adlandırmaq mümkün olan "isti ocağı" olmadan böyüyürlər".

UNICEF-in Böyük Britaniyadakı icraçı direktoru Con Sparks məsələyə münasibətini belə açıqlayır: "Bu qrupa daxil olan bəzi ölkələr dəstəyi artırmaq üçün addımlar atsa da, Böyük Britaniyada biz uşaq və ailə müavinətlərinə ayrılan xərclərin azaldığını görürük və nəticədə, daha çox uşaq yoxsulluq içində böyüyür".

Əgər "qızıl milyard" ölkələri arasında ən firavan yerlərdən biri sayılan Finlandiyanın sakinləri belə yoxsulluqdan şikayətlənməyə başlayıblarsa, o zaman vəziyyətin nikbinliyinə əsas verən elə bir göstərici tapmaq çətindir. "Yle TV"nin xəbər xidməti məlumat verir ki, Finlandiya İstehlakçılar İttifaqının ötən il payızın əvvəlində keçirdiyi sorğunun nəticələrinə görə, ölkə sakinlərinin dörddə biri maliyyə çətinliyi içində və ya onun astanasında olduqlarını düşünürlər. Amma bundan bir il əvvəl keçirilmiş sorğu respondentlərin 20 faizinin oxşar vəziyyətdə olduğunu göstərmişdi. Daha gerçək bir fakt: sorğuda iştirak edənlərin yarıdan çoxu xərclərin artıq ayda 100 avro belə artmasının öhdəsindən gələ bilməyəcəklərini söyləyir. Həmçinin qeyd olunur ki, yüksəkixtisaslı işlərdə çalışan mütəxəssislər arasında daha çox finli dolanışıq üçün kifayət qədər vəsait əldə etmək naminə bir neçə işdə işləməyə məcbur olur. Qiymətlərin artımı ən çox aşağı gəlirli insanlara zərbə vurur. Xüsusilə, xidmət və satış sektorunda çalışanlar arasında yoxsulluq riski yüksəlməkdədir. Eyni zamanda, Finlandiyada bir neçə işi birləşdirən insanların sayı da artır.

Proqnozlara gəlincə isə onları heç cür sevindirici adlandırmaq olmur. "Reuters" agentliyinin "International Rescue Committee"yə istinadla verdiyi hesabatda vurğulanır ki, silahlı münaqişələrin intensivləşməsi, borc "yük"lərinin artması, beynəlxalq maliyyə yardımının kəsilməsi və iqlim dəyişiklikləri səbəblərindən 2024-cü ildə dünyada humanitar böhranlar daha da dərinləşəcək.

Yoxsulluğun nəticələri ömür boyu davam edə bilər. Çünki yoxsulluq içində yaşayan uşaqların məktəbi bitirmək şansları çox az, perspektivdə isə aşağı maaşlı işlərdə işləmək ehtimalı böyükdür. Hesabata görə, bəzi ölkələrdə kasıb rayonlarda anadan olanlar zəngin ərazidə doğulanlardan 8-9 il az yaşayacaqlar.

Bu da "bəxtəvər ölkə" kimi təmsil olunan və öyünən ölkələrin sonu! Allah bizi və uşaqlarımızı belə vəziyyətlərdən qorusun.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Qazi-şair Nizami Saraçlı haqq dünyasına qovuşdu

**Tanınmış Azərbaycan şairi, əslən Gürcüstanın Bolnisi rayonunun Saraçlı kəndindən olan AYB-nin üzvü Nizami Saraçlı da haqq dünyasına qovuşdu. O, bu gün doğma Saraçlı kəndində torpağa tapşırılacaq.**



Nizami Saraçlının "Aramıza düşən yaylıq" adlı ilk kitabı 1986-cı ildə çap olunub. Təəssüf ki, bundan 38 il sonra araya yaylıq kimi düşən ayrılıq onu aramızdan apardı. Yüksək vətənpərvərlik ruhu aşılayan gözəl şeirlər yazan Nizami Saraçlı 20-dən çox kitabın və "Dosta gedən yorulmaz" adlı 8 cildliyin müəllifi idi. Azərbaycan Silahlı Qüvvələrinin mayoru kimi Qarabağ döyüşlərində iştirak edib. "N" saylı hərbi hissənin şəxsi heyət üzrə komandir müavini olub və sonralar Azərbaycan Radio və Televiziyasında böyük redaktor vəsifəsində çalışıb.

Qarabağ qazisi olan istedadlı şair Nizami Saraçlı "Qurban Türkün bayrağına", "Qafqaz İslam ordusu", "Bakı Təbriz Ankara", "Ey sabahın zabitləri" kimi onlarla mahnı və marşın sözlərini yazıb. O, Mutlutürk təxəllüsü ilə Türk ellərində sevilərək tanınıb, Turan şairi kimi Vətənə, Türk ellərinə şeirlər ithaf edib. Qələmə aldığı poeziya nümunələri tez-tez Azərbaycanda, eləcə də bütün Türk dünyasında nəşr olunan qəzet və jurnallarda dərc olunub, sevilə-sevilə oxunub. Onun şeirlərinə türk seriallarında mahnılar bəstələnib, həmçinin söz müəllifi olduğu "Tanrı Türkə yar olsun!" mahnısını Osmanlı İmperiyası haqqında çəkilmiş məşhur "Diriliş Ərtoğrul" teleserialında istedadlı müğənnimiz Şəmistan Əlizamanlı böyük sevgi ilə səsləndirib.

Şair Nizami Saraçlı 1991-ci ildə 43 ölkədən olan 3 min 500 şairin iştirak etdiyi müsabiqənin qalibi olaraq "Beynəlxalq Peyğəmbər" mükafatı alıb, 1993-cü ildə Gürcüstanın ali mükafatı – "Şərəf" ordeni ilə təltif olunub. 2002-ci ildə isə 5 ölkənin sədrliyi ilə Avrasiya Beynəlxalq Mətbuat Fondunun təsis etdiyi "Dünya həqiqətlərini ictimaiyyətə çatdırdığına və döyüş xidmətlərinə görə Avrasiya mükafatı"na layiq görülüb. Həmin ildə ona 2-ci dəfə olaraq Gürcüstanın "Şərəf" ordeni təqdim edilib. Nizami Saraçlı 2003-cü ildə 7 ölkə şairlərinin müsabiqəsinə qatılıb və qalib olaraq Beynəlxalq "Abay" mükafatına sahiblənib.

Şair-qazi, 74 yaşlı Nizami Saraçlının ölümündən kədərləndiyimizi bildirir, qohum-əqrabasına, yaxınlarına başsağlığı veririk. Məkanı cənnət olsun! – deyirik.

***Nizami MƏMMƏDZADƏ,***
***Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri***

Sərhədsiz incəsənət

# Qərbi Azərbaycan yaddaşı



**Dünən Azərbaycan Milli İncəsənət Muzeyində "Sərhədsiz incəsənət" adlı ilk inklüziv layihənin təqdimatı olub. Görmə qabiliyyəti məhdud olan şəxslər üçün nəzərdə tutulmuş layihə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Azərbaycan Gözdən Əlillər Cəmiyyəti ilə birgə həyata keçirilib.**

Ölkəmizin muzey tarixində təsviri sənət sahəsində ilk dəfə taktilliyin (toxunma və ya dəri vasitəsilə alınan informasiya-red) tətbiq olunduğu bu layihə muzeydə davam edən "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" sərgisi çərçivəsində baş tutub.

Burada Mirzə Qədim İrəvaninin (XIX əsr rəssamı) bir neçə məşhur rəngkarlıq və qrafik portretlərinin və rus rəssamı Nikolay Qruşevin "İrəvan Sərdar məscidi" əsərinin relyef modelləri nümayiş olunub, eyni zamanda, əsərlər haqqında məlumat Brayl əlifbası ilə təqdim edilib.

Açılış mərasimində Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən fiziki məhdudiyyətli şəxslərin muzey həyatına, sosial və mədəni mühitə cəlb edilməsi istiqamətində davamlı layihələrin həyata keçiriləcəyi və muzeyin daimi ekspozisiyasının da yaxın gələcəkdə onlar üçün uyğunlaşdırılacağı vurğulanıb.

***FİDAN***
***XQ***

# "ABŞ Rusiya şirkətlərinin hesablarını bağladır..."

**"Kreml Türkiyə banklarının rusiyalı müştərilərinin problemlərindən xəbərdardır". Bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.**

Onun sözlərinə görə, Rusiya Federasiyası bu məsələdə türkiyəli tərəfdaşları ilə fəal dialoq aparır. Peskov Türkiyə banklarının məlum addımı atmasında ABŞ-ni ittiham edib.

"Türkiyə bankları tərəfindən Rusiya şirkətlərinin hesablarının bağlanmasına ABŞ-ın Türkiyəyə açıq və aqressiv təzyiqləri səbəb olur", – deyə Kremlin sözçüsü vurğulayıb.



***XQ***

# Portuqaliyalı fermerlər də "traktor" aksiyası keçirirlər



**Fransa və digər Avropa ölkələrində kəndlilərin tətillər keçirdiyini izləyən portuqaliyalı fermerlər etiraz aksiyaları keçirməyə başlayıblar: onlar ölkənin şimalından cənubuna yolları traktorlarla bağlayıblar. Məlumatı "İnterfaks.ru" verib.**

Təxminən 200 traktor Portuqaliyanın şimal-şərqindəki Quarda bölgəsində və İspaniya ilə sərhəddəki Portaleqredə, təxminən, eyni sayda traktor cəmlənib. Bundan əlavə, Portuqaliyanın mərkəzində yerləşən Santarem şəhərinin yollarında 100-ə yaxın traktor, cənubdakı Beja şəhərində isə 45 traktor yola çıxıb.

Hərəkətin məhdudlaşdırılmasına baxmayaraq, ictimai asayiş pozulmayıb.

Bir gün əvvəl Portuqaliya hökuməti 500 milyon avroluq təcili yardım paketi elan edib ki, bu paket çərçivəsində dizel yanacağına vergi 55 faiz azaldılacaq, həmçinin ekoloji təmiz kənd təsərrüfatı və qarışıq əkinçiliyin dəstəklənməsi üçün 120 milyon avro ayrılacaq. Həmçinin quraqlığın təsirini yumşaltmaq üçün nəzərdə tutulan tədbirlərə təxminən 200 milyon avro xərclənəcək.

Fermer etirazları son həftələr bir çox Avropa ölkələrinə təsir edib. Belə ki, Fransada fermerlər iki həftədən çox etiraz aksiyası keçirərək, Paris yaxınlığındakı magistral yolu traktorlarla bağlayıb və Tuluza şəhəri hava limanına girişi əngəlləmək üçün otları yandırıblar.

***P.ƏMİRCANOV***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti
tabeliyindəki idarələrə tələb olunan yuyucu vasitələrin satın alınması məqsədilə
AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il fevralın 12-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1162

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 22 (30426) 2 fevral 2024-cü il, cümə

Cahana sığmayan şairimiz

# “Günəş qürub edəndə rəngi saralar”



**Hələb şəhərində Nəsiminin çox istədiyi şagirdlərindən biri onun qəzəlini küçədə avazla, ucadan oxuyurmuş. Eşidənlər gəncdən:**

– Şeirin müəllifi kimdir?– deyə soruşanda gənc deyir:

– Mənim şeirimdir.

Bu cavabı gözləməyənlər onu tutub öldürmək istəyirlər. Xəbər Nəsimiyə çatır. O, özünü hadisə yerinə çatdırır və deyir:

– Şeir mənimdir. O gənc məni çox sevdiyindən şeir müəllifi kimi özünü nişan verib. Buraxın onu.

Gənci buraxıb Nəsimini tuturlar və dərisinin soyulmasına hökm verirlər. Şairin edam zamanı rəngi avazıyır, sonra saralır. Cəlladlar onu ələ salmaq üçün deyirlər:

– Şair, bərk dayan, rəngin niyə saralır?

Nəsimi qürurla onlara üz tutur və deyir:

– Bəli, rəngim saralır. Mən əbədiyyət üfüqlərində doğmuş eşq günəşiyəm. Günəş qürub edəndə rəngi saralar.

* * *

**Ədəbi mənbəələrdə belə yazırlar ki, Nəsiminin edamını icra etdirən ruhani üzünü meydana toplaşanlara tutub demişdir:**

– Bu elə məlundur ki, onun qanından bir damla hara düşsə, kəsilib atılmalıdır.

Təsadüfən şairin qanından bir damcı sıçrayıb həmin ruhaninin barmağına düşür. Hadisə yerinə toplaşanlar ruhaninin barmağının kəsilməsini tələb etdikdə, o, qorxur:

– Mən söz məsəli demişəm, – deyə yaxasını qurtarır.

Bu zaman al qan içində olan şairin əzəmətli səsi yüksəlir:

**Zahidin bir barmağın kəssən**
**dönüb həqdən qaçar,**
**Gör bu miskin aşiqi**
**sərpa soyarlar, ağrımaz.**

**Z.HÜSEYNLİ**
**XQ**

Sosial şəbəkələrdən seçmələr

# “Mən səni sevirəm, ata!”



**Bu foto sosial şəbəkələrdə çox populyarlaşıb.**

Ata qızına deyir:

– Heç kimə demə ki, sənin atan süpürgəçi işləyir. Onlar səni lağa qoyacaqlar.

Qız, əksinə, bu fotonu sosial şəbəkələrdə yerləşdirərək yazıb:

– Mənim atam süpürgəçidir. Mən onunla fəxr edirəm.

Mən səni sevirəm, ata!

**Eşq olsun belə qeyrətli qıza!**

**XQ**

# Azərbaycan kitabı Qahirə sərgisində

**Misirdə 55-ci Qahirə Beynəlxalq Kitab Sərgisi keçirilir. Ölkəmiz də təmsil olunduğu sərgiyə 70 ölkədən 1200-dən artıq nəşriyyat qatılıb.**

Mədəniyyət Nazirliyinin əməkdaşları və şair Aqşin Yeniseyin tərkibində olduğ nümayəndə heyətimiz sərginin açılış günündə və sonra bir sıra tədbirlərdə iştirak ed Azərbaycana dair yeni nəşr olunan qiymətli kitabların nümayiş etdirildiyi milli stendda ölkəmizin tarixi, mədəniyyəti, kitab sənəti, o cümlədən Şuşa şəhərinin 2024-cü il uzra "İslam dünyasının mədəniyyət paytaxtı" seçilməsi barədə sərgi iştirakçılarına və ziyarətçilərinə geniş məlumat verilib.

Qeyd edək ki, Qahirə Beynəlxalq Kitab Sərgisi fevralın 6-dək davam edəcək.

**XQ**

Uzunömürlülərimiz

# Əsrdən yaşlı Rəxşəndə nənə

**O, dünyaya gələndə artıq sovet hökuməti qurulmuşdu. Nə bəy qalmışdı, nə də onun var-dövləti. Mehri rayonunun Aldərə kəndində Aslan bəyin yeganə övladı olub. Rəxşəndə tək olsa da, ərköyün olmayıb. Lap erkən yaşlarından əməyə alışıb, zəhmətə qatlaşıb.**

Gözümü dünyaya Ələngəz dağının ətəklərində açmışam. Zəngəzur mahalı, o yerlərin təbiəti, havası, suyu bir başqa idi. Baldırğan, Turşsu, Səlinti bulağının buz kimi soyuq suyundan içmişəm, yazın lap əvvəlində mal-qaranı, qoyun-quzunu götürüb Saqqarsu, Buxakar yaylaqlarına köçər, payızda yerə qırov düşəndə geri qayıdardıq, – deyə Rəxşəndə nənə Qərbi Azərbaycanın Mehri rayonunda keçən gənclik illərini xatırlayıb.

Kənddəki məktəbdə təhsil alıb. Tale elə gətirib ki, qonşu Tuğut kəndindən olan öz sinif yoldaşı Mahmud Talıbovla ailə həyatı qurub. Mahmud İkinci Dünya müharibəsinin iştirakçısı olub və cəbhədə çox ağır qəlpə yaraları alıb. Müharibədən qayıdandan sonra Rəxşəndə Əsgərova ilə ailə həyatı qurub. 1947-ci ildə ilk övladı Əşrəf, sonra qızları Həqiqət, Gülçöhrə, Sona və oğlu Əhməd dünyaya gəlib. Onlar otuz beş ildən atıq bir yerdə ömür sürüblər. 1981-ci ildə bu dünyadan gedəndə övladlarını Rəxşəndə xanıma tapşırıb. Rəxşəndə də bir ana kimi hamısının yükünü çəkib, qayğısına qalıb. Ötən əsrin 80-ci illərinin axırlarında soydaşlarımız Qərbi Azərbaycandakı öz ata-baba yurdlarını tərk etmək məcburiyyəti ilə üz-üzə qalanda onların da ailəsi Bakıya pənah gətirib.

Əsrin dizini qatlayan Rəxşəndə xanım indi Bakının Binəqədi rayonunda yaşayır. Həyat ona uzun ömür sürmək qismət etsə də, oğlu Əşrəfi, qızları Həqiqət və Gülçöhrəni əlindən alıb. İndi kiçik qızı Sonanın ailəsi ilə bir yerdə yaşayır.

Ömrünün 104-cü ilini yaşayan Rəxşəndə Əsgərova indi 12 nəvə, çoxlu nəticə sahibidir. “Nənə üçün ən böyük arzu nəvə toyunda, nəticə toyunda qol götürüb oynamaqdır, şükür ki, o da mənə qismət olub”, – deyir.



Rəxşəndə nənə uzun ömür sürmək üçün xüsusi bir resepti olmadığını deyir: “Mən uzun illər günəbaxan yağı nə olduğunu bilməmişəm. Təmiz inək yağı ilə xörək qazanı asmışıq, həmişə təzə südümüz, qatığımız olub, motal pendiri evimizdən əskik olmayıb. Tutdan bəkməz hazırlayar, irçal, doşab bişirərdik. Yoldaşım arıçı olduğundan təmiz baldan istifadə etmişik”.

Uzun illərdir ki, Rəxşəndə nənə oruc tutur, namaz qılır. “Həmişə əllərimi göyə açıb dua eləmişəm ki, ay Allah, sən bizim xalqımıza kömək ol. Yurdumuz, torpaqlarımız yağı əlində qalmasın. Bizi öz doğma el-obamızdan perik salanların cəzasını ver. Şükür ki, indi hər şey yerbəyer olub, torpağımız gavurların əlində qalmadı, ən böyük təsəllim budur”, – deyir.

O, fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkiləri günü 9 saylı Binəqədi ikinci seçki dairəsində səs verəcək. Ömrünün ixtiyar çağlarını yaşayan nənə indiyə qədər iştirak etdiyi seçkilərin sayını itirib. Yaddaşı yerindədir, görmə qabiliyyəti yaxşıdır, qulağı yaxşı eşidir. Amma ayaqları ağrıdığına görə birbaşa məntəqədə yox, evə gətirilən seçki qutusu vasitəsilə səs verəcək. “Kimə səs verəcəksən, Rəxşəndə nənə?” – deyə ondan soruşuruq: “Mən həmişə sülhə, əmin-amanlığa, haqqa, ədalətə səs vermişəm. Bu seçkilərdə də həmçinin. Qoy həmişə xalqımız aydın və təmiz səma altında yaşasın, müharibə, qan-qada, ölüm-itim bizlərdən uzaq olsun”, – deyir.

Nə deyəsən? Ana arzusuna, nənə alqışına qoşulmamaq olarmı? O da ola ölkəmizin ən uzunömürlü seçicilərindən biri Rəxşəndə Əsgərova...

**Süleyman QARADAĞLI**
**XQ**

HAVA

# Yağmursuz və dumanlı bir gün...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 2-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq.Gecə 1-4°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq. Gecə bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q. QASIMOV***
**XQ**

İDMAN

# 4 şahmatçımız dünya 100-lüyündə

**Beynəlxalq Şahmat Federasiyasının (FIDE) fevral ayı üçün reytinq cədvəli açıqlanıb. FIDE-nin rəsmi saytına istinadən xəbər verir ki, ilk “onluq”da Azərbaycan şahmatçıları yer almayıblar.**

Ötən reytinqlə müqayisədə iki pillə geriləyən Şəhriyar Məmmədyarov (2723) 26-cı sırada qərarlaşıb. Əvəzində Teymur Rəcəbov (2723) 25-ci yerə yüksəlib. Rauf Məmmədov (2651) 88-ci, yenidən "100-lüy"ə dönən Nicat Abasov (2641) 96-cı pilləni tutur.

Siyahıya əvvəlkitək norveçli Maqnus Karlsen (2830) başçılıq edir. ABŞ təmsilçiləri Fabiano Karuana (2804) və Hikaru Nakamura (2788) müvafiq olaraq 2-3-cü yerləri bölüşdürürlər.

Azərbaycanın qadın şahmatçıları arasında Günay Məmmədzadə (2449) 26-cı pillədəki mövqeyini qoruyub. Ülviyyə Fətəliyeva (2384) 65-ci, Gövhər Beydullayeva (2374) 76-cı, Gülnar Məmmədova (2351) 100-cü sırada yer alıb.

**XQ**



Sağlamlıq

# Cəfəri – əridir daşı, zəhəri

**Cəfərinin inanılmaz faydaları var. Buna görə də “göyərtilərin şahı cəfəridir” deyimi boş yerdən yaranmayıb. Cəfəri orqanizmdə bütün zərərli radikalları və metobolizm qalıqlarını zərərsizləşdirən lüteolinlə zəngindir.**



Lüteolinin digər faydası iltihab əleyhinə təsiridir. Bircə dəstə cəfəri qandamar və oynaq iltihabı proseslərini azaldır.

Mütəxəssislərin fikrincə, cəfəri antioksidant təsiri ilə immuniteti gücləndirir. A, C vitaminləri ilə zəngindir. Bu, göyərtidən çox istifadə edənlər nadir halda xəstələnirlər.

Cəfəridə olan K vitamini sümüklərin möhkəmliyini təmin edir. Cəfəri yeməyə vərdiş edənlərin dişləri və sümükləri möhkəm olur. Eləcə də, K vitamini qan laxtalanması prosesini tənzimləyir. Ürək-damar xəstəliklərindən qoruyur.

Orqanizm damarların tamlığını pozan, insult, infarkt riskini artıran homosistein adlı amin turşuzu sintez edir. Cəfəridə olan B 9 vitamini həmin homosisteini nəzarətə götürür, bununla da ürək-damar sistemini ciddi problemlərdən qoruyur.

Göyərtinin faydaları bununla da bitmir, onda olan miristisin orqanik birləşməsi xərçəng əleyhinə təsir edir.

Cəfəri həm də gözəllik, cavanlıq mənbəyidir. Ondan ağardıcı və ləkə aparıcı xüsusiyyətinə görə, kosmetologiyada müxtəlif maskaların hazırlanmasında istifadə edirlər.

**Z.HÜSEYNLİ**
**XQ**

# Milli Kitabxanada gənclik sərgisi

**Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən 2 Fevral Azərbaycan Gəncləri Günü adlı virtual sərgi hazırlanıb.**

Kitabxanadan Mətbuata bildirilib ki, əlamətdar gün münasibətilə virtual sərgidə fotolar, dövri mətbuat səhifələrində dərc olunan məqalələr və mövzu haqqında kitablar nümayiş olunur.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb.




**XQ**

✓ *Bakı şəhərinin, Yasamal rayonu, “Yeni Yasamal” yaşayış massivinin Kənar Dairəvi yolunda inşa edilmiş yaşayış kompleksinin 3-cü girişinin mansard hissəsində ümumi sahəsi 57,6 kv.metr olan 1 otaqdan ibarət A 1 nömrəli mənzillə bağlı “Şərur MTK” ilə İbrahimova Nigar Raqif qızı arasında 7 noyabr 2023-cü il tarixdə imzalanmış kooperativ mənzil tikintisi haqqında müqavilə və müqaviləyə əlavə olunmuş hesablanma cədvəli itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəşriyyat şöbəsinin mütəxəssisi İradə Təhməzovaya anası

ZƏRİFƏ İSMAYILOVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3423
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00